www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu  Gündəlik qəzet  20 avqust 2024-cü il  Çərşənbə axşamı  № 147 (8520)  Qiymət 60 qəpik

**Xəbər**

## İxtisas seçimi bitdi - abituriyentlərin həyəcanlı həftəsi

yazısı səh.7-də

**Gündəm**

### Seçkiyə 10 gün qaldı: namizədlər kampaniyanı necə aparır - açıqlama



**Fazil Mustafa:** "Yayda seçki çox ağır keçir, ona görə..."

yazısı səh.4-də

### Sülh danışıqlarının bərpa olunacağı tarix - rəy

yazısı səh.9-da

### Belarusda ara qarışır - Lukaşenkodan ilginc açıqlama

yazısı səh.12-də

### Türkiyədə meşə yanğınları - hər il təkrarlanması təsadüfdür, yoxsa...

yazısı səh.14-də

### Rusiya Azərbaycandan nə gözləyir, nə istəyir? - təhlil

yazısı səh.3-də

### Kobaxidze: "Gürcüstanda parlament seçkilərində mübarizə müharibə və sülh arasında gedəcək"

yazısı səh.15-də

### Azərbaycanda 15 milyona stadion tikiləcək

yazısı səh.11-də

### Həkim andı, hakim andı, əsgər andı... - onu pozmağın cəzası varmı

yazısı səh.7-də

### Azərbaycan meyvə-tərəvəz ixracından 380 mln. dollardan çox gəlir əldə edib

yazısı səh.14-də

### Ölkəmiz 36-cı Beynəlxalq İnformatika Olimpiadasında təmsil olunacaq

yazısı səh.6-da

### Su sayğacında 2 kq heroin tapıldı

yazısı səh.2-də

# ƏLİYEVLƏ PUTİNİN TARİXİ BAKI GÖRÜŞÜ - MÜHÜM QƏRARLAR

Rusiya Prezidentinin Azərbaycana xüsusi xarakterli səfəri dünyanın diqqət mərkəzində; liderlər iqtisadi sferada əməkdaşlığın artırılmasını razılaşdırdılar, Cənubi Qafqazı, Ukrayna məsələsini müzakirə etdilər



yazısı səh.5-də

## Afrikanı çənginə alan meymunçiçəyi dünyaya yayılsa - virus müharibəsi, yoxsa...

**Zülfüqar Yusifov:** "Bir tərəfdən viruslar, bir tərəfdən də müharibələr - bu bəlalardan qurtulmaq üçün..."

yazısı səh.11-də



*Lavrov:*

**"Paşinyan Zəngəzurdan keçən kommunikasiyaların açılması barədə razılaşmanı sabotaj edir"**

yazısı səh.3-də



*Ceyhun Bayramov:*

**"Ermənistanla münasibətləri normallaşdırmaq niyyətindəyik, lakin əsassız tələblər aradan qaldırılmalıdır"**

yazısı səh.9-da



**Blinken bir ildə doqquzuncu dəfə İsraildə - Qəzzada atəşkəs ümidi tükənir**

yazısı səh.8-də

# Rusiya və Azərbaycan birlikdə tankerlərin tikintisinə başlayır



**Rusiyanın Birləşmiş Gəmiqayırma Korporasiyası (USC) və Bakı Gəmiqayırma Zavodu neft məhsullarının daşınması üçün çay-dəniz tankerlərinin tikintisinə başlayır.**

Musavat.com xəbər verir ki, bu məlumatı Rusiya prezidenti Vladimir Putin Bakıda açıqlayıb.

Onun sözlərinə görə, bu tankerlərin "Azov-Qara dəniz və Xəzər marşrutlarında istifadəsi enerji resurslarının dünya bazarlarına çıxarılmasını əhəmiyyətli dərəcədə artıracaq".

Qeyd edək ki, USC 2007-ci ildə Putinin fərmanı ilə yaradılıb. Səhmlərinin 100 faizi federal mülkiyyətdədir. 2023-cü ilin avqust ayından "VTB Bank"ın etibarlı idarəçiliyindədir.

❑ **Musavat.com**



## Qəza ilə bağlı Bakıya suyun verilməsində yenidən fasilə yaranıb

**Oğuz-Qəbələ-Bakı su kəmərində baş verən qəza ilə bağlı Abşeron, Yasamal, Səbayel, Nəsimi, Nizami, Xətai, Binəqədi, Sabunçu, Xəzər, Suraxanı, Pirallahı rayonlarına, Ramanı qəsəbəsinə suyun verilməsində fasilə yaranacaq.**

İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətindən APA-ya daxil olan məlumata görə, avqustun 19-u səhər başladılan təmir-bərpa işlərinin avqustun 20-si axşam saatlarında yekunlaşacağı planlaşdırılır.

Avqustun 21-dən suyun əvvəlki rejimlə verilməsi təmin olunacaq.

Qeyd edək ki, bir neçə gün əvvəl də Oğuz-Qəbələ-Bakı su kəmərində baş verən qəza ilə bağlı Bakının bəzi ərazilərinə su verilməsində bir neçə gün ərzində fasilə yaranmışdı.



## İtaliyada yaxta batıb, milyarder Mayk Linç və digər 5 nəfər itkin düşüb

**İtaliyanın Siciliya adası sahillərində göyərtəsində 22 nəfər olan yelkənli super-yaxta batıb.**

APA-nın "Sky News"a istinadən xəbərinə görə, hadisəyə güclü fırtınanın səbəb olduğu bildirilib. İlkin məlumata əsasən, hadisə nəticəsində 1 nəfər ölüb, 6 nəfər itkin düşüb, 15 nəfər xilas edilib.

İtkinlər arasında milyarder Mayk Linç də var. Onun sərvəti 11 milyard dollar həcmində qiymətləndirilir. Super-yaxtanın batdığı ehtimal olunan ərazidə axtarış işləri davam etdirilir.



Fil Donahyu

## ABŞ və SSRİ arasındakı telekörpülərin amerikalı aparıcısı ölüb

**Vaxtilə ABŞ və SSRİ arasındakı telekörpülərin aparıcısı olan məşhur amerikalı teleaparıcı Fil Donahyu vəfat edib.**

APA xəbər verir ki, bu barədə onun ailəsi "NBC" telekanalının "Today" şousunun rəsmi səhifəsi vasitəsilə məlumat verib. 89 yaşlı F.Donahyu öz evində dünyasını dəyişib.

Qeyd edək ki, onun aparıcısı olduğu "Fil Donahyunun Şousu" proqramının qonaqları arasında Nelson Mandela, Medlin Mürrey O'Hara kimi məşhurlar olub.

F.Donahyu rusiyalı jurnalist Vladimir Poznerlə SSRİ və ABŞ arasında telekörpülərin aparıcısı olub. O həmçinin 1986-cı ildə "Çernobıl" AES-də baş verən qəzadan sonra əraziyə səfər edən ilk əcnəbi jurnalist kimi də tarixə düşüb.

## E vitamini çatışmazlığı orqanizmdə nələrə səbəb olur?



**E vitamini sağlam dərinin qorunmasında mühüm rol oynayır. Onun çatışmazlığı ilə dəri quru və solğun ola bilər. Bu vitamin görmə kəskinliyi, əzələ tonusu və bədəndəki bir çox digər funksiyalar üçün də vacibdir. Buna görə də səviyyənizi izləmək vacibdir, çünki E vitamininin həm çatışmazlığı, həm də artıqlığı problemlər yarada bilər.**

Musavat.com Lent.az-a istinadən bildirir ki, E vitamini səkkiz kimyəvi formada mövcuddur, onların hər biri fərqli bioloji aktivliyə malikdir. E vitamini hüceyrə membranlarını oksidləşmədən və məhv olmaqdan qoruyan yağda həll olunan birləşmədir. Bu vitamin orqanizmdə sintez olunmur. E vitamini çatışmazlığı bulanıq görmə, zəiflik, əzələ gücünün azalması, əzalarda uyuşma, zəif koordinasiya, quru dəri və piqmentasiya kimi özünü göstərə bilər.

Tokoferol yağ toxumasında, qaraciyərdə və əzələlərdə toplanır. Yetkinlərdə E vitamininin normal səviyyəsi 5,5-17 mkq/ml təşkil edir. E vitamini üçün gündəlik tələbat kişilər, qadınlar və hamilə qadınlar üçün 15 mq, süd verən analar üçün isə 19 mq təşkil edir.

E vitamininin həddindən artıq qəbulu ishal, qusma, şişkinlik və qan təzyiqinin artmasına səbəb ola bilər.

Yüksək dozada E vitamininin uzun müddət istifadəsi şübhə doğurur. Tədqiqatlar xroniki xəstəlikləri olan xəstələrdə yüksək dozada E vitamininin (400 IU və ya daha çox) uzun müddət istifadəsi ilə ölüm və ürək çatışmazlığının mümkün artımını göstərir.

Yüksək dozada E vitamini trombositlərin yığılmasına mane ola bilər ki, bu da hemorragik insult riskini artırır. Bundan əlavə, yüksək dozada tokoferolun istifadəsi ilə prostat xərçəngi riskinin artmasına dair sübutlar var.

## Su sayğacında 2 kq heroin tapıldı

**Paytaxt sakini olan bir nəfər polisə müraciət edərək yaşadığı evin girişində quraşdırılmış su sayğacının içərisinə naməlum bağlama yerləşdirildiyini bildirib.**

Musavat.com DİN-ə istinadən xəbər verir ki, Nizami RPİ-nin 25-ci Polis Şöbəsi əməkdaşları tərəfindən həmin ünvana baxış keçirilərək sayğacın içərisindən 2 kiloqrama yaxın narkotik vasitə olan heroin aşkarlanaraq götürülüb.

Faktla bağlı araşdırmalar davam etdirilir.



Səma Məhərrəmova

## Polis bu qızı axtarır

**Abşeron rayon Mehdiabad qəsəbə sakini 2008-ci il təvəllüdlü Səma Məhərrəmova 10 gündən artıqdır itkin düşüb.**

Musavat.com bildirir ki, bu barədə "Qafqazinfo"ya onun yaxınları bildiriblər.

Belə ki, avqustun 8-də taksi ilə yaşadığı yeri tərk edən 16 yaşlı qızdan daha sonra məlumat almaq mümkün olmayıb.

Onun evi tərk edəndən sonra paytaxtın Nizami və Xətai rayonları ərazisində olması kameralara düşüb. Lakin hazırda harada olması məlum deyil.

DİN-in mətbuat xidmətindən sorğumuza cavab olaraq bildirilib ki, Məhərrəmova Səma Əsgər qızının itkin düşməsi ilə bağlı axtarış elan olunub: "Şəxsin tapılaraq aidiyyəti üzrə təhvil verilməsi təmin olunacaq".

## Beyləqanda 9 yaşlı uşaq kanalda batıb

**Beyləqanda su kanalında batan uşağın kimliyi məlum olub.**

APA-nın yerli bürosunun məlumatına görə, su kanalında batan uşağın 2015-ci il təvəllüdlü Yeni Mil qəsəbəsi sakini İbrahimov Əhməd Cahid oğlu olduğu bildirilir.

FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-xilasedicilər axtarışlara cəlb olunub.

YENİ MÜSAVAT
N 147 (8520) 20 avqust 2024

# Rusiya Azərbaycandan nə gözləyir, nə istəyir? - təhlil

## Bakı slavyanların qardaş qırğınının durduğu məkan ola bilər

**Rusiya prezidenti Vladimir Putinin Azərbaycana səfəri ilə ölkə gündəminin əsas mövzularından biridir və bunun belə olması olduqca təbiidir.**

Hazırda Rusiya, onun Ukraynada apardığı müharibə, kollektiv Qərbin bu müharibədə iştirakı, prezident Vladimir Putinin indiyədək tutduğu və indən sonra tutacağı mövqe bütün dünyanın diqqət mərkəzindədir.

Belə bir vaxtda V.Putinin Azərbaycana səfəri bu iki ölkənin xaricində də maraq doğurur.

Öncə onu deyək ki, Azərbaycanın regionda sülhün, təhlükəsizliyin və əməkdaşlığın möhkəmlənməsinə yönəlmiş siyasəti, bu kontekstdə qonşu ölkələrlə qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi böyük əhəmiyyət daşıyır. Rəsmi Bakının prioritetlərindən biri regionda qalıcı sülhə, təhlükəsizliyə nail olmaqdır.

Rusiya isə regionun böyük ölkələrindən biridir. Son iki əsrin 170 ilini bu ölkə ilə Azərbaycan eyni sərhədlər daxilində yaşayıb, 33 ildir bir-birindən uzaqlaşmadan eyni geosiyasi məkanda mövcuddur. Bu illər ərzində iki ölkə arasında sıx iqtisadi-ticarət, siyasi, humanitar əlaqələr yaranıb.

Rusiya təkcə öz regionunun deyil, həm də dünyanın aparıcı dövlətlərindən biridir, BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri olaraq çoxqütblü dünya nizamında öz yerini qoruyub saxlamağa, söz sahibi kimi çıxış etməyə çalışır.

Azərbaycan müstəqilliyini bərpa edəndən bəri Rusiya ilə əlaqələr ərazi bütövlüyü, bərabərhüquqluq və bir-birinin daxili işlərinə müdaxilə etməmək prinsipləri əsasında davam və inkişaf edir. Bəzən arada yaranan problemlər bir qayda olaraq gərginliyə yol verilmədən, qarşılıqlı razılaşma yolu ilə həll edilir. Bu, iki ölkə arasında yaxın dostluq münasibətlərinin, dövlətlərarası dialoqun yüksək səviyyədə olmasının nəticəsində mümkün olur.

Azərbaycanla Rusiya arasında vaxtilə sıx şəkildə mövcud olan iqtisadi əlaqələrin yeni dönəmdə daha da inkişaf etməsi göz qabağındadır. Bu tərəqqini ifadə edən konkret rəqəmlər var. Məsələn, 2023-cü ilin nəticələrinə görə 2022-ci illə müqayisədə ticarət dövriyyəsi 17 faiz artaraq 4.5 milyard dollar səviyyəsinə yüksəlib, 2024-cü ildə daha yüksək nəticə gözlənilir. İnkişaf özünü əsasən sənaye və kənd təsərrüfatı məhsullarının qarşılıqlı ixrac-idxalında, turizm sektorunda, yük daşımalarının həcminin artmasında göstərir.




Rusiya ilə Azərbaycan arasında Şimal-Cənub nəqliyyat dəhlizinin inkişaf etdirilməsi sahəsində əməkdaşlıq böyük iqtisadi əhəmiyyətə malikdir. Bu, Rusiyanın öz mallarını Hind okeanı hövzəsinə qədər daşımaq imkanı yaradır. Öz növbəsində Azərbaycanın da bu nəqliyyat arteriyasına (həm şimala, həm də cənuba doğru) qoşulmaq imkanı yaranır. Bu dəhliz dünyada mövcud olan qlobal nəqliyyat dəhlizləri arasında xüsusi önəmə malikdir və ölkələr arasında iqtisadi əlaqələrin qırılmazlığını təmin edir. Azərbaycan Şimal-Cənub dəhlizinin inkişafı istiqamətində bir sıra tədbirlər həyata keçirib, bu kommunikasiyaların etibarlı bəndi olduğunu sübut edib.

Azərbaycan dövlətinin yeritdiyi müstəqil siyasət təbii ki, öz milli maraqlarına uyğundur və bütün tərəflərlə əməkdaşlığı nəzərdə tutur. Rəsmi Bakı zaman-zaman kəskin şəkildə qütbləşən dünyada tərəf tutmadan, həm Qərblə, həm də Rusiya, İran və digər ölkələrlə yaxşı əlaqələr saxlamağa çalışır. Elə qüdrətli ölkələr var ki, hər zaman kiçik ölkələrdən tərəf tutmağı tələb edirlər, amma onların təzyiqinə boyun əymədən öz neytral mövqeyində qalmaq hər baxımdan əlverişlidir. Azərbaycan həm BRİKS, ŞOS kimi platformalarda iştirak edir, həm də Avropa İttifaqı və Qərbin digər qurumları ilə əməkdaşlığa malikdir, ancaq onların hamısı rəsmi Bakını "öz tərkinə almaq" imkanından məhrumdur. Azərbaycan Qoşulmama Hərəkatının fəal üzvlərindən biri olaraq, hərbi-siyasi platformalara qoşulmur, amma özü ikitərəfli qaydada öz strateji tərəfdaşlarını seçir, onlarla uyğun sazişlər imzalayır.

Azərbaycan bir-biri ilə amansız müharibə aparan Rusiya və Ukrayna ilə yaxın münasibətlərə malikdir. Rəsmi Bakı hər iki dövlətlə öz münasibətlərini qoriyub saxlamağa çalışır. Kanat üzərində öz müvazinətini saxlamağa bərabər olan bu neytral mövqedə olmasına görədir ki, Avropa İttifaqı Ukrayna vasitəsilə Rusiya qazının alınmasından tam imtina etdikdən sonra bu sahədə boşluğu doldurmaq üçün Azərbaycanla əməkdaşlıq cəhdlərini artırmağa çalışır və Azərbaycan qazının Ukrayna ərazisindəki qaz kəmərləri vasitəsilə nəqlini nəzərdən keçirir.

Prezident İlham Əliyevin beynəlxalq arenada yürütdüyü siyasətin düzgünlüyünü zaman və baş verən hadisələr təkrar-təkrar təsdiqləyir. Onun məharətli diplomatiyası sayəsində, Rusiya ilə qurulmuş düzgün münasibətlər nəticəsində Azərbaycan bir sıra tarixi problemlərinin həllinə nail oldu, öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Başqa yol yox idi. Qarabağ probleminin həlli bu ölkənin neytral mövqe tutmasından çox asılı idi. Azərbaycan Rusiyanın uzun illərdən sonra nəhayət, Qafqaz ölkələri arasında bərabərlik işarəsi qoymasına nail oldu və bu, öz bəhrəsini verdi. Çünki Azərbaycan Ermənistanla bərabər deyildi, güclü və haqlı idi, sadəcə, ortadakı arbitrin ədalətli olması lazım idi.

Hazırda ukraynalı ekspertlər də Azərbaycanın yürütdüyü müdrik siyasəti nümunə gətirir və Prezident İlham Əliyevin səyləri nəticəsində Azərbaycanın Qərblə Rusiya arasında münaqişə arenasına çevrilmədiyini və öz milli məqsədlərinə nail olduğunu qeyd edir, bunu yüksək qiymətləndirirlər.

İndi ölkəmiz dünyada dialoq məkanı kimi tanınır. Həm Rusiya, həm də Ukrayna Azərbaycana, onun liderinə etimad göstərir. Bu etimad votumu Rusiya-Ukrayna qarşıdurmasının sülh yolu ilə həllində səmərəli istifadə oluna bilər. Elə olsa, regiona sülh və əmin-amanlıq gələr, eyni zamanda ölkəmizin beynəlxalq nüfuzunun daha artmasına töhfə olar.

❑ Musavat.com

## Lavrov: "Paşinyan Zəngəzurdan keçən kommunikasiyaların açılması barədə razılaşmanı sabotaj edir"




**"Paşinyan Qarabağ üzrə üçtərəfli razılaşmaları sabotaj edir". APA xəbər verir ki, bunu Bakıda səfər olan Rusiya xarici işlər naziri Sergey Lavrov Rusiyanın "Birinci Kanalı"na açıqlamasında deyib.**

"Təəssüf ki, Ermənistanın Sünik bölgəsindən (Zəngəzur-red.) keçən kommunikasiyalara gəlincə, altında baş nazir Paşinyanın imzası duran sazişi sabotaj edən məhz Ermənistan rəhbərliyidir. Belə bir mövqenin məntiqinin nə olduğunu anlamaq çox çətindir. Amma mən əminəm ki, üçtərəfli görüşlər çərçivəsində, üçtərəfli sənədlərdə qoyulan təməl tam şəkildə aktual olaraq qalır", - Lavrov deyib.

## Azad edilmiş ərazilərdə daha 152 mina, 6954 PHS aşkarlanıb




**İşğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən icra olunan əməliyyatlar barədə həftəlik məlumat (12.08.2024 - 18.08.2024) açıqlanıb.**

ANAMA-dan APA-ya verilən məlumata görə, Tərtər, Ağdam, Ağdərə, Laçın, Füzuli, Şuşa, Xocalı, Xankəndi, Kəlbəcər, Xocavənd, Cəbrayıl, Qubadlı və Zəngilanda 121 piyada əleyhinə mina, 31 tank əleyhinə mina, 6954 Partlamamış Hərbi Sursat (PHS) aşkarlanıb.

Bildirilib ki, 1 048,7 hektar ərazi mina və PHS-lərdən təmizlənib.

YENİ MÜSAVAT
N 147 (8520) 20 avqust 2024

# Seçkiyə 10 gün qaldı: namizədlər kampaniyanı necə aparır - açıqlama

## Fazil Mustafa: "Yayda seçki çox ağır keçir, ona görə..." Elşad Musayev: "Bəzi siyasi təşkilat təmsilçiləri seçkilərdə iştirak etmir, ona-buna çirkab yaxır..."

**Seçki prosesinin əsas hissəsi artıq geridə qalıb. 10 gün sonra ölkədə səsvermə keçiriləcək. Yəni sentyabrın 1-də Milli Məclisə növbədənkənar seçkilər keçiriləcək. Avqustun 9-dan etibarən isə seçkiqabağı təşviqat kampaniyasına başlanılıb və təşviqat üçün hər dairə üzrə qapalı və açıq məkan olmaqla 5509 ünvan müəyyənləşdirilib. Bu proses avqustun 31-i saat 8:00-da başa çatacaq. Hazırda deputatlığa namizədliyi qeyd alınmış şəxslər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri tərəfindən təşviqat kampaniyası həyata keçirilir.**

Bəs tanınmışlar seçki kampaniyasını necə aparır? Ümumiyyətlə, vətəndaşların seçkiyə marağı varmı? Diqqətçəkən bir məqam ondan ibarətdir ki, seçkilərə qatılan bəzi siyasi partiyaların nümayəndələri təbliğat-təşviqat prosesində iştirak etmirlər. Bunun səbəbi nədir?

**Deputatlığa namizəd, Milli Məclisin VI çağırış deputatı Fazil Mustafa mövzu ilə bağlı "Yeni Müsavat"a deyib ki, vətəndaşların seçkiyə marağı var:** "Biz kampaniya keçirərkən görüşlərə çox sayda insanlar gəlir. Ən azı çıxışları dinləyirlər, öz mövqelərini bildirirlər. Amma yayda seçki çox ağır keçir. Çünki avqust ayında hər kəs hansısa formada istirahət edir, bir çoxu ölkədə deyil. Ümid edirəm ki, sentyabrın 1-də daha çox insan seçkidə iştirak edəcək və səs verəcək. Əslində seçici fəallığı çox önəmlidir. Biz də çalışırıq ki, bu fəallığı artıraq, insanların seçki prosesinə maraq göstərməsini təmin edək. Hər halda, avqust ayı təsirini göstərir. Fəallığın aşağı olmasının əsas səbəblərindən biri budur".

**Deputatlığa namizəd, Böyük Azərbaycan Partiyasının (BAP) sədri Elşad Musayev də mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini açıqlayıb:** "Mütəmadi görüşlər keçiririk, məhəllələrə gedirik, fərdi görüşlər keçiririk. Seçki prosesinin tələb etdiyi qayda budur. Kim seçkilərdə iştirak edirsə, hər xırda fürsətdən istifadə edib təbliğat aparmalıdır. Siyasi təşkilatın mövqeyini açıqlamalıdır, proqramını ortaya qoymalıdır. Biz hər vasitə ilə bu fürsətdən yararlanmağa çalışırıq. Ötən növbədənkənar prezident seçkisində də, parlamentdə olan partiyalar içərisində BAP seçki prosesinə qoşuldu. İndiki halda o təcrübə işimizə yarayır. Bizim bütün təbliğat materiallarımız artıq hazır idi. İndinin özündə də müxtəlif məsələlərlə bağlı öz proqram planlarımızı ortaya qoyuruq. Hesab edirəm ki, işlərimiz uğurla gedir. Seçicilərin bizə münasibəti çox yaxşıdır.





Hər halda, əhalinin müəyyən hissəsi məni tanıyır. Bununla belə, siyasi partiyaların seçkilərə qatılıb, təbliğat kampaniyasında iştirak etməməsini anlaya bilmirəm. Müəyyən partiyalar var, onlar ənənəvi olaraq dedi-qodu ilə məşğuldurlar. Seçkilərə qatılıb, seçki kampaniyasında iştirak etmir, amma kənara kiməsə söz atmaqla məşğuldurlar. Belə olmaz. Seçkiyə gedən öz seçiciləri ilə məşğul olmalıdır. Seçkiyə gedib təbliğat aparmırsınızsa, onda niyə gedirsiniz?! Necə ki bir qisim adam var, müxtəlif partiyalardan gediblər. Onlar faktiki olaraq seçki prosesində iştirak etmirlər. Ona-buna çirkab yaxmaqla məşğuldurlar. Bir qisim adamlar da nə isə qoparmaq istəyir. Təəssüflər olsun ki, bunlar içərisində siyasi təşkilat təmsilçiləri də var, hətta tanınan siyasi təşkilat təmsilçiləri də var".

**Bəs seçkiqabağı və ya referendumla bağlı təşviqatın aparılması qaydalarının və müddətinin pozulmasına görə qanunvericilikdə hansı cərimələr nəzərdə tutulub? "Seçki 2024" Müstəqil Media Mərkəzindən bununla bağlı bildirilib ki, Seçki Məcəlləsinin 164.1-ci bəndinə əsasən, seçkiqabağı və ya referendumla bağlı təşviqatın aparılmasının Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydalarının və müddətinin pozulmasına görə 100 manatdan 150 manatadək məbləğdə cərimə edilir:** "Qeydə alınmış namizədə seçkiqabağı təşviqatın müddəti başa çatana kimi şərəf və ləyaqətini seçki qanunvericiliyi ilə müəyyən olunmuş televiziya və radio yayımçılarının proqramlarında və dövri nəşrlərdə onların vəzifəli şəxsləri tərəfindən müdafiə etmək imkanının verilməməsinə görə - vəzifəli şəxslər 150 manatdan 250 manatadək məbləğdə, hüquqi şəxslər 300 manatdan 450 manatadək məbləğdə cərimə olunur".

"Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında **Mərkəzi Seçki Komissiyasının (MSK) katibi Mikayıl Rəhimov** deyib ki, sentyabrın 1-də keçiriləcək Milli Məclis seçkilərində əlilliyi olan şəxslərin səsvermə prosesində seçmək hüququndan sərbəst şəkildə istifadə etmələri üçün müvafiq şərait yaradılacaq. O bildirib ki, əlilliyi olan şəxslərin səsvermə prosesində iştirakı Seçki Məcəlləsinin tələblərinə uyğun təmin edilir: "Seçki Məcəlləsinin 17-ci maddəsində qeyd olunur ki, seçki orqanları əlilliyi və ya digər fiziki pozuntusu olan, uzaq və ya yolu çətin keçilən yerlərdə yaşayan seçicilərin seçkilərdə iştirakı üçün bütün imkanlar yaratmalıdırlar. Məcəllənin 104-cü maddəsinə əsasən seçki bülletenini müstəqil yazıb doldurmaq imkanı olmayan əlilliyi olan seçici məntəqə seçki komissiyasının üzvlərindən və müşahidəçilərdən başqa, istədiyi şəxsi kömək üçün otağa və ya kabinəyə çağıra bilər. Bu şəxsin soyadı və inisialı seçicilər siyahısında seçki bülleteni alınması barədə seçicinin imzası ilə birgə göstərilir. Qanunvericiliyin tələbinə uyğun olaraq, əlilliyi olan şəxslərin səsvermə prosesində istədiyi şəxsin onu müşayiət etməsi hüququ təmin olunur".

**M.Rəhimov əlavə edib ki, əlilliyi olan şəxslərin seçki hüququnun təmin edilməsi Azərbaycanın Seçki Məcəlləsi ilə yanaşı, beynəlxalq hüququn da tələbidir:** "BMT-nin "Əlillərin hüquqları haqqında" Konvensiyası əlilliyi olan şəxslərin seçkilərdə iştirakına dair konkret tələbləri özündə əks etdirir. Bu konvensiya əlilliyi olan şəxslərin seçki hüququnun təmin edilməsi ilə bağlı iştirakçı dövlətlərin üzərinə öhdəliklər qoyub. 2008-ci ildə bu konvensiyaya qoşulan Azərbaycan qoyulan tələblərin hamısını icra edir".

**MSK katibi əlilliyi olan şəxslərin səsvermə prosesində iştirakını asanlaşdırmaq üçün müvafiq addımların atıldığını da diqqətə çatdırıb:** "Bu addımlardan biri əlil arabasından istifadə edən şəxslərin hərəkətini təmin etmək məqsədilə seçki məntəqələrində pandusların quraşdırılmasıdır. Mərkəzi Seçki Komissiyası pandusların quraşdırılması işini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə həyata keçirir. MSK seçkidə iştirak hüququna malik əlilliyi olan şəxslər haqqında ƏƏSMN-dən məlumatları alır və onların səs verəcəyi məntəqələrdə pandusların quraşdırılmasını təmin edir".

**M.Rəhimov qeyd edib ki, görmə qabiliyyəti məhdud olan seçicilər üçün brayl əlifbası ilə seçki bülletenlərinin çapı da həyata keçirilir. MSK görmə qabiliyyəti məhdud olan seçicilərin səsvermə hüququnun təmin edilməsi məqsədilə Gözdən Əlillər Cəmiyyəti ilə sıx əməkdaşlıq edir:** "Brayl əlifbası ilə çap olunan bülletenlər görmə qabiliyyəti məhdud olan seçicilərin səs verəcəyi məntəqələrlə yanaşı, ehtiyat üçün bütün məntəqələrə də verilir".

"Azərbaycanın demokratiya təcrübəsi bir çox ölkələrdən daha qədimdir. Bir çox ölkədə seçki hüququ hələ tam formalaşmadığı vaxt, Azərbaycan Cümhuriyyətində qadınlar da daxil olmaqla, bütün vətəndaşlara seçki hüququ verilmişdi. Azərbaycanın tarixi təcrübəsi və müstəqilliyini bərpa edəndən sonra daha da inkişaf edən seçki ənənəsi sentyabrın 1-də keçiriləcək Milli Məclis seçkilərinin şəffaf, demokratik prinsiplərə uyğun baş tutacağına zəmin yaradır".

Bu fikirləri "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında **türkiyəli jurnalist Həsən Barın** deyib. O, Azərbaycanda seçki təhlükəsizliyinin yüksək səviyyədə təmin edildiyini diqqətə çatdırıb:

"Bu gün dünyada seçki prosesi ilə bağlı ən vacib məsələlərdən biri təhlükəsizliyin təmin edilməsi, kənar müdaxilələrin qarşısının alınmasıdır. Bütün ölkələr bunu təmin edə bilmir. Azərbaycan seçki təhlükəsizliyinin təmin edilməsində dünya ölkələri üçün nümunə ola bilər".

**Türk jurnalist hesab edir ki, Azərbaycanda keçirilən seçki prosesi beynəlxalq müstəvidə demokratik və şəffaf seçki nümunəsidir. H.Barın Milli Məclis seçkilərinin ilk dəfə azad olunmuş ərazilərdə keçirilməsinin Azərbaycanın xarici siyasəti üçün önəmli hadisə olduğunu vurğulayıb:** "Bu ilin fevral ayında azad olunmuş ərazilərdə ilk dəfə prezident seçkisi keçirildi, sentyabrın 1-də də ilk dəfə parlament seçkiləri baş tutacaq. Bu, Azərbaycanın beynəlxalq müstəvidə, o cümlədən sülh danışıqlarında mövqelərini gücləndirən amildir. Bu ərazilərdə seçki keçirilməsə, danışıqlarda azad olunmuş torpaqlar üzərində suverenliyin təmin edilmədiyi kimi iddialar irəli sürülə bilər. Seçkinin keçirilməsi bu ərazilərdə də insanların təməl demokratik hüququnun təmin edilməsidir ki, bundan sonra Azərbaycana qarşı belə bir iddiaların irəli sürülməsi mümkün deyil. Bu baxımdan, prezident seçkisindən sonra parlament seçkilərinin də azad olunmuş əraziləri əhatə etməsinin Azərbaycanın xarici siyasəti üçün əhəmiyyət kəsb etdiyini düşünürəm".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

## Bakıda marketə basqın olub, 700 manatlıq tütün məmulatı oğurlanıb



**Bakının Sabunçu rayonunda naməlum şəxs gecə saatlarında marketlərdən birinə daxil olaraq əvvəlcə orada satıcı işləyən şəxsə zor tətbiq edib, sonra isə 700 manat dəyərində tütün məmulatını oğurlayaraq hadisə yerindən qaçıb.**

Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən məlumat verilib

Bildirilib ki, polis əməkdaşları tərəfindən cinayət əməlini törətməkdə şübhəli bilinən əvvəllər dəfələrlə məhkum olunmuş N.Əhmədov müəyyən olunaraq saxlanılıb.

Faktla bağlı Sabunçu Rayon Polis İdarəsində araşdırmalar davam etdirilir.

YENİ MÜSAVAT
N 147 (8520) 20 avqust 2024



# Əliyevlə Putinin tarixi Bakı görüşü - mühüm qərarlar

## Rusiya prezidentinin Azərbaycana xüsusi xarakterli səfəri dünyanın diqqət mərkəzində; liderlər iqtisadi sferada əməkdaşlığın artırılmasını razılaşdırdılar, Cənubi Qafqazı, Ukrayna məsələsini müzakirə etdilər

**Rusiya Federasiyasının Prezidenti Vladimir Putin avqustun 18-də Azərbaycan Respublikasına iki günlük dövlət səfərinə gəlib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva evlərində ölkəmizdə rəsmi səfərdə olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə şam ediblər.**

Avqustun 19-da isə Putin Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Putin həmçinin avqustun 19-da Şəhidlər Xiyabanını ziyarət edib, şəhidlərin xatirəsini anaraq "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Dövlət səfərində olan Rusiya prezidentinin avqustun 19-da rəsmi qarşılanma mərasimi olub.

Sonra Prezident İlham Əliyevin Azərbaycanda dövlət səfərində olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə məhdud tərkibdə görüşü keçirilib.

**AZƏRTAC xəbər verir ki, görüşdə Prezident İlham Əliyev ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin səviyyəsindən çox məmnun olduğunu bildirib**: "Qeyd etmək istərdim ki, biz ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin səviyyəsindən çox məmnunuq. 2022-ci ilin fevralında imzaladığımız müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə uğurla yerinə yetirilir, həm siyasi, həm də iqtisadi sahədə çox müsbət dinamika, yaxşı rəqəmlər görürük. Əlbəttə, həm energetika, həm də nəqliyyat sahələrində əməkdaşlıq edirik, humanitar əlaqələrə, həmçinin bir çox digər sahələrə xüsusi diqqət yetiririk".

**Prezident İlham Əliyev əmin olduğunu bildirib ki, Vladimir Putinin Azərbaycana hazırkı dövlət səfəri ikitərəfli münasibətlər üçün faydalı olacaq:** "Bu gün gündəlikdə duran məsələləri bir daha müzakirə edəcəyik. Əminəm ki, səfər həm Sizin, həm də münasibətlərimiz üçün xoş olacaq".

**Vladimir Putin də bildirib ki, Azərbaycanlaə Rusiya arasında qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında Bəyannamə uğurla yerinə yetirilir:** "Münasibətlərimiz hələ 2022-ci ilin əvvəlində Sizinlə imzaladığımız bəyannamə əsasında inkişaf edir, uğurla yerinə yetirilir və Sizin bu ilin aprelində Moskvaya səfəriniz ikitərəfli münasibətlərimizin inkişafına yaxşı təkan verib. İqtisadi-ticari əlaqələr uğurla inkişaf edir. Rusiyada keçirilən əvvəlki görüşümüzdə Siz mənə demişdiniz ki, 4 milyarddan bir az çox (illik əmtəə dövriyyəsi - red.) yaxşı rəqəmdir. Bu, yaxşı rəqəmdir, amma bizim imkanlarımızın potensialına uyğun deyil. Həqiqətən burada təkcə energetika, sənaye kooperasiyası, nəqliyyat, logistika, yüngül sənayedən danışmaq olmaz. Bizim birgə fəaliyyətimizin istiqamətləri çoxdur. Azərbaycan iqtisadiyyatına qoyulan dörd milyarddan artıq birbaşa investisiya da pis göstərici deyil. Azərbaycanda Rusiya kapitalı ilə 1270 müəssisə fəaliyyət göstərir, sözsüz ki, bu da son hədd deyil".

Prezident Putin Azərbaycanda rus dilinə göstərdiyi diqqətə və bu dilin öyrənildiyi məktəblərin işinə görə Azərbaycana minnətdar olduğunu da söyləyib. Rusiya prezidenti xatırladıb ki, Azərbaycanda 300 rusdilli məktəb, eləcə də Rusiyanın aparıcı ali məktəblərinin filialları fəaliyyət göstərir.

**Putin sonra deyib:** "Hər kəs yaxşı bilir ki, Rusiya da böhranlarla üz-üzədir, ilk növbədə Ukrayna istiqamətində... Lakin Rusiyanın son bir neçə ildə Cənubi Qafqazdakı vəziyyətə tarixən cəlb olunması bizə bu hadisələrdə iştirak etmək zərurətini diktə edir.

Rusiyanın Cənubi Qafqazdakı hadisələrdə iştirakı əlbəttə ki, tərəflərin tələb etdiyi ölçüdə olacaq. Buna heç bir şübhə yoxdur. Əgər biz Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına nail olmaq, məsələni sərhədin delimitasiyası, demarkasiyasına çatdırmaq üçün nəsə edə bilsək, logistika və iqtisadiyyat istiqamətində müvafiq blokları açsaq, buna çox şad olarıq.

Rusiya Federasiyası Cənubi Qafqazdakı vəziyyətin həllində tərəflər üçün vacib olduğu dərəcədə iştirak etməyə hazırdır.

Mən bilirəm ki, Azərbaycan Ermənistanla bütün məsələlərin tam həllinə yönəlib. Rusiya sülhün imzalanması və Ermənistanla Azərbaycan arasında sərhədin demarkasiyası üçün nəsə edə bilsə, şad olar".

Putin Azərbaycana səfərindən sonra Prezident İlham Əliyevlə danışıqların nəticələrini Ermənistanın baş naziri Nikol Paşinyana bildirəcəyini deyib.

Məhdud tərkibli görüşdən sonra Prezident İlham Əliyevin Prezident Vladimir Putinlə geniş tərkibdə görüşü keçirilib.

**Prezident Əliyev bildirib ki, Prezident Putinin Azərbaycana dövlət səfəri ikitərəfli münasibətlər üçün müstəsna əhəmiyyətə malikdir:** "Bu gün artıq Sizinlə fikir mübadiləsi apardıq və ölkələrimiz arasında münasibətlərin - dostlar, qonşular və müttəfiqlər arasında münasibətlərin necə inkişaf etməsindən məmnunluq ifadə etdik. Bütün sahələrdə müsbət dinamika görürük. Nümayəndə heyətlərimizin tərkibi də bunu çox əyani şəkildə göstərir. Yəni həqiqətən də müzakirə, qarşılıqlı fəaliyyət üçün çoxlu mövzular var və bizim qarşılıqlı fəaliyyətimizin əhatə dairəsi ildən-ilə genişlənir. Biz bütün sahələrdə qarşılıqlı fəaliyyətimizi gücləndirmək əzmindəyik. Əminəm ki, Sizin səfəriniz ölkələrimizi və xalqlarımızı bir-birinə daha da yaxınlaşdırmaq istiqamətində növbəti mühüm addım olacaq".

**V.Putin bildirib ki, məhdud tərkibli görüşdə prioritet xarakter daşıyan bir sıra məsələləri müzakirə etməyə nail olublar:** "Biz hələ müvafiq sənədləri imzalamalıyıq. Həmkarlarımızın, eləcə də bizim qeyri-formal şəraitdə dünən söhbət etmək imkanı olub. Bu gün də onlar öz aralarında danışa və yaxın perspektivdə addımları müəyyən edə biləcəklər".

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin iştirakı ilə imzalanmış Azərbaycan-Rusiya sənədlərinin mübadiləsi mərasimi keçirilib.

Daha sonra prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər. Hər iki lider Rusiya-Azərbaycan münasibətlərinin strateji partnyorluq münasibətləri olduğunu ifadə ediblər.

Siyasi analitiklər hesab edir ki, Rusiya liderinin Bakıya iki günlük səfəri, səfər zamanı verilən açıqlamalar hər iki dövlətin münasibətlərinin daha da dərinləşməsi istiqamətində iradənin olduğunu nümayiş etdirdi. Vladimir Putinin açıqlamaları Rusiyanın Cənubi Qafqazda üçtərəfli sazişlər əsasında regionda nəqliyyat, logistika və iqtisadi əlaqələrin bərpa edilməsində maraqlı olduğunu da deməyə əsas verir. Eyni zamanda Putinin açıqlaması Prezident İlham Əliyevlə danışıqlarda Ermənistanla Azərbaycan arasında sülh sazişi məsələsinin, Ukrayna mövzusunun da müzakirə edildiyindən xəbər verir.

Eləcə də Putinin Azərbaycan-Rusiya iqtisadi, ticarət əlaqələrinin daha da genişləndirilməsində maraqlı olduğu açıq ifadə edilib.

Beləliklə, Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana səfəri ilə ölkə gündəminin, hətta dünya gündəminin əsas mövzularından biri oldu. Hazırda Rusiya, onun Ukraynada apardığı müharibə, kollektiv Qərbin bu müharibədə iştirakı, prezident Vladimir Putinin indiyədək tutduğu və indən sonra tutacağı mövqe bütün dünyanın diqqət mərkəzindədir.

Belə bir vaxtda Putinin Azərbaycana səfəri bu iki ölkənin xaricində də maraq doğurur.

Azərbaycanın regionda sülhün, təhlükəsizliyin və əməkdaşlığın möhkəmlənməsinə yönəlmiş siyasəti, bu kontekstdə qonşu ölkələrlə qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi böyük əhəmiyyət daşıyır. Rəsmi Bakının prioritetlərindən biri regionda qalıcı sülhə, təhlükəsizliyə nail olmaqdır. V.Putin də Prezident Əliyevlə görüşdə Azərbaycanın sülh istiqamətində çalışdığını etiraf etdi.

Rusiya isə regionun böyük ölkələrindən biridir. Son iki əsrin 170 ilini bu ölkə ilə Azərbaycan eyni sərhədlər daxilində yaşayıb, 33 ildir bir-birindən uzaqlaşmadan eyni geosiyasi məkanda mövcuddur. Bu illər ərzində iki ölkə arasında sıx iqtisadi-ticarət, siyasi, humanitar əlaqələr yaranıb.

Rusiya təkcə öz regionunun deyil, həm də dünyanın aparıcı dövlətlərindən biridir, BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri olaraq çoxqütblü dünya nizamında öz yerini qoruyub saxlamağa, söz sahibi kimi çıxış etməyə çalışır.

Azərbaycan müstəqilliyini bərpa edəndən bəri Rusiya ilə əlaqələr ərazi bütövlüyü, bərabərhüquqluq və bir-birinin daxili işlərinə müdaxilə etməmək prinsipləri əsasında davam və inkişaf edir. Bəzən arada yaranan problemlər bir qayda olaraq gərginliyə yol verilmədən, qarşılıqlı razılaşma yolu ilə həll edilir. Bu, iki ölkə arasında yaxın dostluq münasibətlərinin, dövlətlərarası dialoqun yüksək səviyyədə olmasının nəticəsində mümkün olur.

Azərbaycanla Rusiya arasında vaxtilə sıx şəkildə mövcud olan iqtisadi əlaqələrin yeni dönəmdə daha da inkişaf etməsi göz qabağındadır. Bu tərəqqini ifadə edən konkret rəqəmlər var. Məsələn, 2023-cü ilin nəticələrinə görə 2022-ci illə müqayisədə ticarət dövriyyəsi 17 faiz artaraq 4.5 milyard dollar səviyyəsinə yüksəlib, 2024-cü ildə daha yüksək nəticə gözlənilir. İnkişaf özünü əsasən sənaye və kənd təsərrüfatı məhsullarının qarşılıqlı ixrac-idxalında, turizm sektorunda, yük daşımalarının həcminin artmasında göstərir.

2 il əvvəl, fevralın 22-də Moskvada Azərbaycan və Rusiya dövlət başçıları iki ölkə arasında "Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" imzalayıb. Sənəddə iki ölkə arasında siyasi, iqtisadı və daha bir çox sahələrdə əməkdaşlığın inkişafının vacibliyindən bəhs edilir.

Rusiya ilə Azərbaycan arasında Şimal-Cənub nəqliyyat dəhlizinin inkişaf etdirilməsi sahəsində əməkdaşlıq böyük iqtisadi əhəmiyyətə malikdir. Bu, Rusiyanın öz mallarını Hind okeanı hövzəsinə qədər daşımaq imkanı yaradır. Öz növbəsində Azərbaycanın da bu nəqliyyat arteriyasına (həm şimala, həm də cənuba doğru) qoşulmaq imkanı yaranır. Bu dəhliz dünyada mövcud olan qlobal nəqliyyat dəhlizləri arasında xüsusi önəmə malikdir və ölkələr arasında iqtisadi əlaqələrin qırılmazlığını təmin edir. Azərbaycan Şimal-Cənub dəhlizinin inkişafı istiqamətində bir sıra tədbirlər həyata keçirib, bu, kommunikasiyaların etibarlı bəndi olduğunu sübut edib.

Azərbaycan dövlətinin yeritdiyi müstəqil siyasət təbii ki, öz milli maraqlarına uyğundur və bütün tərəflərlə əməkdaşlığı nəzərdə tutur. Rəsmi Bakı zaman-zaman kəskin şəkildə qütbləşən dünyada tərəf tutmadan, həm Qərblə, həm də Rusiya, İran və digər ölkələrlə yaxşı əlaqələr saxlamağa çalışır. Elə qüdrətli ölkələr var ki, hər zaman kiçik ölkələrdən tərəf tutmağı tələb edirlər, amma onların təzyiqinə boyun əymədən öz neytral mövqeyində qalmaq hər baxımdan əlverişlidir. Azərbaycan həm BRİKS, ŞOS kimi platformalarda iştirak edir, həm də Avropa İttifaqı və Qərbin digər qurumları ilə əməkdaşlığa malikdir, ancaq onların hamısı rəsmi Bakını "öz tərkinə almaq" imkanından məhrumdur. Azərbaycan Qoşulmama Hərəkatının fəal üzvlərindən biri olaraq, hərbi-siyasi platformalara qoşulmur, amma özü ikitərəfli qaydada öz strateji tərəfdaşlarını seçir, onlarla uyğun sazişlər imzalayır.

Azərbaycan bir-biri ilə amansız müharibə aparan Rusiya və Ukrayna ilə yaxın münasibətlərə malikdir. Rəsmi Bakı hər iki dövlətlə öz münasibətlərini qoruyub saxlamağa çalışır. Kanat üzərində öz müvazinətini saxlamağa bərabər olan bu neytral mövqedə olmasına görədir ki, Avropa İttifaqı Ukrayna vasitəsilə Rusiya qazının alınmasından tam imtina etdikdən sonra bu sahədə boşluğu doldurmaq üçün Azərbaycanla əməkdaşlıq cəhdlərini artırmağa çalışır və Azərbaycan qazının Ukrayna ərazisindəki qaz kəmərləri vasitəsilə nəqlini nəzərdən keçirir.

Prezident İlham Əliyevin beynəlxalq arenada yürütdüyü siyasətin düzgünlüyünü zaman və baş verən hadisələr təkrar-təkrar təsdiqləyir. Onun məharətli diplomatiyası sayəsində, Rusiya ilə qurulmuş düzgün münasibətlər nəticəsində Azərbaycan bir sıra tarixi problemlərinin həllinə nail oldu, öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Başqa yol yox idi. Qarabağ probleminin həlli bu ölkənin neytral mövqe tutmasından çox asılı idi. Azərbaycan Rusiyanın uzun illərdən sonra nəhayət Qafqaz ölkələri arasında bərabərlik işarəsi qoymasına nail oldu və bu, öz bəhrəsini verdi. Çünki Azərbaycan Ermənistanla bərabər deyildi, güclü və haqlı idi, sadəcə, ortadakı arbitrin ədalətli olması lazım idi.

Hazırda ukraynalı ekspertlər də Azərbaycanın yürütdüyü müdrik siyasəti nümunə gətirir və Prezident İlham Əliyevin səyləri nəticəsində Azərbaycanın Qərblə Rusiya arasında münaqişə arenasına çevrilmədiyini və öz milli məqsədlərinə nail olduğunu qeyd edir, bunu yüksək qiymətləndirirlər.

İndi ölkəmiz dünyada dialoq məkanı kimi tanınır. Həm Rusiya, həm də Ukrayna Azərbaycana, onun liderinə etimad göstərir. Həm Rusiya, həm də Ukrayna ilə yaxşı münasibətləri olan ölkə kimi Rusiya-Ukrayna qarşıdurmasının sülh yolu ilə həllində Azərbaycanın imkanlarından istifadə oluna bilər. Elə olsa, regiona sülh və əmin-amanlıq gələr, eyni zamanda ölkəmizin beynəlxalq nüfuzunun daha artmasına töhfə olar

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Moskva ilə Kiyev arasında danışıqlara başlamaq üçün Bakının məkan kimi seçilə bilməsi ehtimalı gündəmdədir:** "Bakının belə bir təcrübəsi var. Putin Ukraynanın Rusiya ərazisinə hücumundan sonra Kiyevlə sülh danışıqlarını istisna etsə də, Kreml sahibi vəziyyətin onun və ölkəsinin zərərinə istiqamətləndiyini anlamamış deyil. Onun real vasitəçiyə və ya danışıqlar üçün tərəfsiz məkana ehtiyacı var".

**E.Şahinoğlunun fikrincə, Belarus vasitəçi roluna yaramır:** "Kiyev qəbul etməyəcək. Türkiyənin vasitəçiliyinə Kreml ehtiyatla yanaşır. Çünki Moskva Türkiyə ilə Ukraynanın hərbi sahədə əməkdaşlığından narazıdır. Bir ara Çin vasitəçiliyini təklif etmişdi, ancaq Pekinin balansı Rusiyanın xeyrinə pozması Kiyevin və onu dəstəkləyən Qərbin maraqlarına ziddir. Yerdə qalır Qətər və Azərbaycan".

❑ **Etìbar SEYÌDAĞA,
"Yenì Müsavat"**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycançılıq ideyasının təbliği



# İlk Milli Məclisin formalaşmasında Heydər Əliyevin xüsusi rolu

## Aydın Hüseynov: "Ulu öndər qısa müddətdə parlamentin ruhunu kökündən dəyişdi, ora siyasi mədəniyyət gətirdi"

**Parlament seçkiləri kampaniyasının təbliğat-təşviqat mərhələsinin yarısı arxada qaldı. 10 gün sonra Azərbaycanın yeni Milli Məclisi seçiləcək. Bu, 1991-ci ildə dövlət müstəqilliyimizi bərpa etdikdən sonra keçən 33 ildə 7-ci çağırış Milli Məclis olacaq. Dövlət müstəqilliyini qazandıqdan sonra Azərbaycanda Milli Məclisə ilk seçkilər Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən iki il sonra - 1995-ci il noyabrın 12-də keçirilib.**

**6-cı çağırış Milli Məclisin deputatı Aydın Hüseynov** "Yeni Müsavat"a bildirib ki, bu tarix müstəqil Azərbaycanın tarixində çox mühüm yer tutur. Ulu öndər Heydər Əliyev özünün mütərəqqi dünyagörüşü ilə, azərbaycançılıq ideologiyasına əsaslanması ilə sabit dövlətçilik və müasir parlamentarizm ənənələrini formalaşdıraraq milli dəyərlər zəminində bugünkü dövlətçilik sistemimizin ideoloji-siyasi dayaqlarını yaratdı: "Müsəlman Şərqində parlament mədəniyyətinin əsası da məhz Azərbaycanda qoyulub. Ulu öndər belə bir fikri vurğulayırdı ki, 1991-ci ildə dövlət müstəqilliyini bərpa edən xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli fəaliyyətinin zəngin ənənələrindən istifadə etmişdir. Azərbaycanda parlamentarizm ənənələrinin inkişafına nəzər saldıqda görürük ki, hələ XX əsrin əvvəlində Rusiya imperiyasında ilk parlamentin formalaşmasına Azərbaycan xalqı da öz töhfəsini verib. Rusiyanın dövlət dumalarına seçilmiş azərbaycanlı deputatların, demək olar ki, hamısı milli təəssübkeşliyi özünün həyat amalı hesab edən ziyalılar idi. Sonrakı dövrdə Xalq Cümhuriyyəti parlamenti cəmi 17 ay fəaliyyət göstərməsinə baxmayaraq, xalqımızın dövlətçilik və milli şüurunun formalaşmasında mühüm rol oynadı, ölkə həyatının ən müxtəlif sahələrinə aid qanunvericilik aktları qəbul etdi.

Heydər Əliyev çağdaş Azərbaycan dövlətinin qurucusu olmaqla yanaşı, həm də haqlı olaraq, müasir Azərbaycan parlamentinin banisi sayılır. Sovet dövründə Azərbaycanda parlamentin qəbul etdiyi qanunlar kommunist partiyasının ideoloji məqsədlərinə xidmət edirdi. Buna baxmayaraq, Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi ilk dövrdə hakimiyyət orqanlarının, o cümlədən parlamentin işini xalqın iqtisadi, mədəni tərəqqisinə, milli dirçəliş siyasətinin reallaşmasına yönəldə bildi.

Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin və SSRİ Ali Sovetinin tribunalarından müdrikliklə istifadə edir, deputat qrupunun Moskvadakı fəaliyyətini Azərbaycanın mənafeyi baxımından məharətlə istiqamətləndirirdi. Bu siyasətin məntiqi nəticəsi kimi kommunist ideologiyasının tüğyan etdiyi bir vaxtda Heydər Əliyev Azərbaycana demokratik və azad düşüncə tərzi, milli özünüdərk duyğusu gətirdi".

**A.Hüseynov vurğuladı ki, dövlət müstəqilliyini yeni elan etmiş Azərbaycana Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı isə müstəqillik tariximizdə keyfiyyətcə yeni siyasi bir eranın başlanğıcı oldu**: "Ulu öndər Heydər Əliyev müdrik dövlət xadimi kimi parlamentin milli dövlətçilik sistemində yerini və rolunu lazımınca dəyərləndirir, ölkə qarşısında duran məsələlərin həllində qanunverici orqanın imkanlarından maksimum yararlanmaq nümunəsi göstərirdi. Ali Sovetin sədri kimi ulu öndər ilk gündən parlamentarizm ənənələrinə sadiq qalaraq aşkarlıq prinsipinə üstünlük verdi. Milli Məclisin iclasları, mətbuat konfransları, respublika əhəmiyyətli müşavirələr birbaşa yayımla televiziya ekranlarına verildi. Ölkədəki vəziyyət olduğu kimi xalqa çatdırıldı. İctimai-siyasi həyatdakı gərginliyin aradan qaldırılması üçün lazımi tədbirlər görülməyə başlandı. Ulu öndər parlamentarizm ənənələrinin inkişafına müstəqilliyimizin qorunub saxlanması, daha da möhkəmlənməsi prizmasından yanaşır, bu sahəni dövlətçilik məfkurəsinin ayrılmaz tərkib hissəsi hesab edirdi.

Heydər Əliyevin 1993-cü il iyunun 15-dən oktyabrın 10-dək Ali Sovetə rəhbərlik etdiyi dövrdə parlamentarizm ənənələri yeni nəfəs, yeni qüvvə aldı. Cəmi 4 ay Ali Sovetin sədri vəzifəsində çalışsa da, Ulu öndər bu qısa müddətdə parlamentin ruhunu kökündən dəyişdi, Milli Məclisə siyasi mədəniyyət gətirdi. Onun iclası aparmaq tərzi, fikirlərini dəqiq əsaslandırması, çıxışların məğzini tutmaq bacarığı, qiymətli fikirləri ümumiləşdirmək qabiliyyəti özlüyündə parlamentin üzvləri üçün yeni bir örnək, əsl parlamentarizm məktəbi idi".

**A.Hüseynov qeyd etdi ki, Heydər Əliyev prezident seçildikdən sonra da parlamentlə sıx əlaqə saxlamış, yüksək səviyyəli Prezident-parlament münasibətlərinin dövlətçiliyimizin daha da möhkəmlənməsinə, xalqın rifah halının yaxşılaşmasına xidmət etməsi üçün səylərini əsirgəmirdi:** "1995-ci il noyabrın 12-də keçirilən Milli Məclisə seçkilər isə müstəqilliyini bərpa edən Azərbaycanın ilk parlament seçkiləri oldu. Müstəqil Azərbaycanın birinci çağırış Milli Məclisində Prezident Heydər Əliyevin təşəbbüsü ilə müstəqil dövlətimiz üçün həyati əhəmiyyətli qanunlar qəbul olundu. Ulu öndər hüquqi dövlət quruculuğu prosesində parlamentlə sıx əlaqə şəraitində böyük uğurlara nail oldu. Statistikaya müraciət etsək, görərik ki, 1993-cü il oktyabrın 10-dan 2002-ci il dekabrın 30-dək Milli Məclis tərəfindən qəbul edilmiş 1715 qanun və qərardan 975-i Prezident Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilib.

Heydər Əliyevin əsasını qoyduğu milli inkişaf strategiyası bu gün ölkə prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizin inkişaf modeli bütün dünyada maraqla izlənilir.

Hazırda müstəqil Azərbaycanın bütün sahələr üzrə qanunvericilik bazası mövcuddur. Qəbul olunmuş Konstitusiya qanunları, məcəllələr, qanunlar, təsdiq edilmiş konvensiyalar, sazişlər cəmiyyət və dövlət həyatında yaranan münasibətləri tənzimləməyə xidmət edir. Qanunvericilik fəaliyyətində bəşəri dəyərlər milli dəyərlərimizlə üzvi surətdə əlaqələndirilir".

## Azərbaycan 36-cı Beynəlxalq İnformatika Olimpiadasında təmsil olunacaq




**1-8 sentyabr 2024-cü il tarixlərində Misirin İsgəndəriyyə şəhərində 36-cı Beynəlxalq İnformatika Olimpiadası (IOI 2024) baş tutacaq.**

"Azercell"in dəstəyi ilə olimpiadalara hazırlıq keçən Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdi Fuad Qarayev, Bakı şəhəri, Akademik Zərifə Əliyeva adına liseyin 10-cu sinif şagirdi Ayxan Dəmirli və 11-ci sinif şagirdi Hüseyn Ağayev, həmçinin Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyi 10-cu sinif şagirdi Tahir Əliyev ölkəmizi bu nüfuzlu bilik yarışında təmsil edəcəklər.

Olimpiadada təxminən 90-a yaxın ölkədən 350-dən çox məktəblinin iştirakı gözlənilir. Müsabiqənin 2 günü ərzində şagirdlərə hər gün 3 alqoritmik məsələni həll etmək üçün 5 saat vaxt veriləcək.

Qeyd edək ki, Azərbaycan komandası "Azercell Telekom"un dəstəyi ilə payız, qış, yaz və yay kamplarına, həmçinin Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Türkiyənin İstanbul şəhərində hazırlıq proqramına cəlb edilib.

2017-ci ildən etibarən informatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlıq prosesi "Azercell Telekom" MMC-nin Elm və Təhsil Nazirliyi və Təhsil İnstitutu ilə əməkdaşlığı çərçivəsində həyata keçirilir. Bu müddət ərzində Azərbaycanın bölgələrindən və paytaxt məktəblərindən olan şagirdlərimiz fərqli yaş qrupları üzrə müxtəlif miqyaslı proqramlaşdırma müsabiqələrində ümumilikdə 74 medal qazanıblar.

Məktəblilərimizə dəstəyimizi davam etdirir və onlara yeni uğurlar arzulayırıq!

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Etibar SEYİDAĞA

# İxtisas seçimi bitdi - abituriyentlərin həyəcanlı həftəsi

## Bu peşələri heç kim seçmir; ekspertlərdən həyəcan təbili

**Ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul olmaq üçün ixtisas seçimi bu gün bitdi.**

**Təhsil eksperti Adil Vəliyev** deyir ki, 1-ci və 2-ci qrupda boş yerlərin qalması gözlənilir.

"3-cü və 4-cü qrupda demək olar ki, əsas ixtisasların plan yerləri tam şəkildə doldurulacaq. Ancaq ola bilsin ki, regionlarda və özəl ali təhsil müəssisələrində bir neçə ixtisas boş yeri qalsın.

Qeyd edim ki, bu il biz ixtisas seçimində bir neçə problemlə də qarşılaşdıq. Əsas problemlərdən biri subbakalavrların elektron ərizələri təsdiqləməmələri və yaxud da abituriyentlərin elektron ərizələri vaxtında təsdiqləməmələri olub. Buna görə də təəssüf ki, ixtisas seçimində nə birinci turda, nə də ikinci turda boş qalan yerlərdə iştirak edə bilmədilər.



Düşünürəm ki, maarifləmə işləri çox yaxşı şəkildə aparılır. Sadəcə olaraq, məlumatları valideynlər və abituriyentlər çox da diqqətə almırlar".

**Təhsil məsələləri üzrə ekspert Elşən Qafarov** bildirir ki, 2024-2025-ci illər üçün tələbə yerlərinin sayı 60 min nəzərdə tutulub.

"78 min abituriyentdən 60 mini istədikləri yerlər üzrə qəbul olunacaq. Ənənəvi olaraq bizdə elə ixtisaslar var ki, həmin ixtisaslar üzrə rəqabət çox olduğu üçün ballar da yüksəkdir. Məsələn, biz bunu tibb və hüquq təhsili üzrə görə bilərik.

Son illər informasiya texnologiyaları və iqtisadiyyatla bağlı peşələrə maraq çoxalıb. Pedaqoji sahədə təhsil almaq istəyənlərin sayı da ildən-ilə artır. Burada da balların artmasını müşahidə edirik.

Təəssüf ki, bunu aqrar sahə ilə bağlı deyə bilməyəcəyik. Bu sahəni seçənlərin sayı azalıb. Keçid balları ən aşağı səviyyədədir.

Biz 10 il bundan qabaq pedaqoji sahəni seçənlər üçün müəyyən tədbirlər gördük. Nəticə etibarı ilə bu gün 600-dən yuxarı bal toplayanlar da bu gün pedaqoji sahəni seçir".

❑ **Şahanə RƏHİMLİ,**
**"Yeni Müsavat"**

# Həkim andı, hakim andı, əsgər andı... - onu pozmağın cəzası varmı

## **Hüquqşünas:** "Andı pozmağa görə mənəvi məsuliyyətlə yanaşı, qanunvericilikdə müəyyən edilmiş məsuliyyətlər var"

**Bəzi peşə sahibləri fəaliyyətə başlamazdan öncə and içirlər. Məsələn, həkimlər, hakimlər, hərbçilər, əsgərlər və s. Bəs bu andları pozmağın, orada qeyd etdiklərinə əməl etməməyin cəzası, hüquqi məsuliyyəti varmı? Yoxsa bunlar sırf mənəvi məsələlərdir?**



**Tibb elmləri doktoru, professor Adil Qeybulla** "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, həkimlər Hippokrat andı içsələr də, bu, hüquqi məsuliyyət yaratmır: "Hippokarat andı əksər ölkələrdə həkim etikası kodeksi adlı hüquqi aktın tərkib hissəsidir. Amma aktda hüquqi məsuliyyət yaradan konkret müddəalar var. Həkimin tibb bacıları, orta tibb işçiləri, xəstələrlə münasibətində hüquqi məsuliyyət yaradan məsələlər orada açıq göstərilib. Yəni təəssüf ki, mənəvi aktlar heç bir hüquqi məsuliyyət yaratmır. Bəzən Hippokrat andına istinadlarla qarşılaşırıq. Bu and heç bir hüquqi məsuliyyət yaratmır. Bu, mənəvi aktdır. Hesab edirəm ki, bütün mübahisəli məsələlərin hüquqi çərçivədə həll olunması üçün konkret qanun lazımdır. Tibb sahəsində bu həkim etikası kodeksidir. Əsas məsələlər konkret müddəalarla təsdiq olunur və bu da parlamentdə təsdiq olunan qanun olur".

**Hüquqşünas Əlövsət Allahverdiyev də "Yeni Müsavat"a şərhində bildirdi ki, peşə andları hüquqi məsuliyyət yaratmır:** "Andlar mənəvi xarakter daşıyır. Peşəyə hörmətin aşılanması istiqamətində atılan addım kimi qəbul edilir. Eyni zamanda istər Azərbaycanda, istərsə də dünyanın başqa ölkələrində qanunda andı pozmağa görə heç bir məsuliyyət nəzərdə tutulmayıb. Hər hansı şəxs andı pozmağa görə yox, törətdiyi əmələ görə məsuliyyət daşıyır. İstər həkim, istər hərbi qulluqçu, kim olursa-olsun, törətdiyi əməl cinayət tərkiblidirsə, yaxud mülki hüquqi məsuliyyət doğurursa, bu halda şəxs məsuliyyət daşıyır. Daşıdığı məsuliyyət isə qanunla qadağan olunmuş əməli törətdiyinə görədir. Məsələn, həkim xəstənin ölümünə səbəb olubsa, yaxud xəstənin ləyaqətini alçalda biləcək hər hansı hərəkət edirsə, bu, mülki məsuliyyət yaradır".

**Hüquqşünas Polad Mehdiyev isə mövzunu belə şərh etdi:** "Andın mahiyyəti konstitusiya və qanunvericiliyə, eyni zamanda peşə üçün xarakterik olan xüsusiyyətlərə sadiq qalmağa and içməkdir. Andı pozmağa görə mənəvi məsuliyyətlə yanaşı, qanunvericilikdə müəyyən edilmiş məsuliyyətlər var. Ümumiyyətlə, Azərbaycan qanunvericiliyində məsuliyyətin 4 növü müəyyən edilib: mülki-hüquqi, intizam, inzibati və cinayət məsuliyyəti. And içməli olan şəxslər and içdikdən sonra vəzifə səlahiyyətlərinə başlayarkən onların üzərində qanunvericiliklə vəzifə öhdəliklərini yerinə yetirmək və məhdudiyyətlərə əməl etmək öhdəliyi var. Şəxs vəzifə öhdəliklərini yerinə yetirmədiyi təqdirdə, dolayısı ilə andın ehtiva etdiyi şərtləri pozarsa, ağırlıq dərəcəsinə görə sözügedən məsuliyyətlərdən biri seçilir. Məsələn, vəzifə səlahiyyətlərini həyata keçirməyən dövlət qulluqçusu intizam məsuliyyətinə cəlb olunur. İntizam məsuliyyətinin növləri var: töhmət, vəzifə maaşının tutulması, vəzifə dərəcəsinin aşağı salınması və vəzifədən kənarlaşdırma. Vəzifəli şəxs törətdiyi əməlin dərəcəsinə görə cinayət məsuliyyətinə də cəlb oluna bilər. Azərbaycan Konstitusiyasında da Vətənə sədaqət maddəsi var. Bu maddənin pozulması ağır məsuliyyətə səbəb yaradır. Hakimlər, dövlət qulluqçuları, millət vəkilləri törətdikləri hüquqi məsuliyyətə görə, andı pozma dərəcəsinə görə məsuliyyətə cəlb olunurlar. Məsələn, dövlət sirrini yaya bilərlər. Dövlət sirrini yaymaq isə Vətənə xəyanətə qədər gətirib çıxara bilər. Azərbaycan Konstitusiyasının 74-cü, Vətənə sədaqət maddəsinə görə vəzifəyə seçilmə və ya təyinat yolu ilə qanunvericilik yaxud məhkəmə hakimiyyət orqanlarında işləyən şəxslər vəzifələrini dürüst və layiqincə yerinə yetirməyə görə məsuliyyət daşıyırlar. Qanunla müəyyən edilmiş hallarda and içirlər. Bunun pozulması isə kontitusion məsuliyyət yaradır. Bir sözlə, o şəxslər and içir ki, konstitutiya və qanunvericilik aktları ilə öhdəlik götürürlər və vəzifə səlahiyyətlərini yerinə yetirmə borcluluğu var. Bunu pozmağa görə Azərbaycan qanunvericiliyinə görə məsuliyyət daşıyırlar. Eyni zamanda and içən şəxslər tutduğu vəzifənin əhəmiyyətinə görə mənəvi məsuliyyət daşıyırlar".

**Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin sədri, politoloq Xəyal Bəşirov hesab edir ki, bu həm mənəvi, həm də hüquqi məsələdir:** "Andiçmə qanunvericiliklə müəyyən edilmiş vəzifə öhdəliklərinə riayət edilməsini ehtiva edir. Vəzifə öhdəliklərinin pozulması qanunvericilik tələblərinin pozulması, başqa sözlə desək, hüquqazidd addımların atılması deməkdir. Bu da məsuliyyət yaradır. Yəni həm mənəvi, həm də hüquqi məsuliyyət yaranır. Hər bir şəxs peşə fəaliyyətində qanunla üzərinə qoyulan vəzifələrə layiqincə riayət etməlidir. Əks təqdirdə, qanunauyğun ölçülər götürüləcək".

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**



# Çiçəyi çırtlayan meymunlar

Zamin HACI
zaminhaci@gmail.com

**Əgər bu axmaq zarafatı hələ etməyiblərsə, qabağa düşək: hamımız meymunluq elədik, axırda meymun çiçəyi xəstəliyi çıxdı. Bu, bir növ ştamp-zarafatdır. Donuz qripi bəşəriyyətdə donuzluğun artmasından yaranmışdı, quş qripi özünü toyuq kimi aparanlara görə. COVİD hansı "heyvanlıqdan" törənmişdi, onu, deyəsən, axıracan dəqiqləşdirmədilər. Gah yarasa dedilər, gah panqolin. Ortaq rəyə gəlməyə vaxt yox idi, camaat milçək kimi qırılırdı.**

Rəhmətlik şair Mətləb Nağı demişkən, bircə adam qripi olmadı yoluxaq.

Ancaq zarafat bir yana, bu meymun çiçəyi hökumətimizin uzaqgörənliyinə növbəti sübutdur. Baxın, koronavirus pandemiyası iki ildir sovuşub, biz isə sərhədləri açmadıq. Hara baxsan tənqid eşidilirdi, camaat deyinirdi. İndi isə Dünya Səhiyyə Təşkilatı qlobal miqyasda epidemiya təhlükəsi elan etmişdir. Deməli, sabah bütün dövlətlər sərhədlərini bağlamağa başlasa biz hamıdan öndə olacağıq! Bu temada İsa peyğəmbərin kitabında yaxşı söhbətlər var, deyir bir gün camaat yığışır, İsa bəydən soruşurlar bizim axırımız, dünyanın axırı necə olacaqdır. İsa müəllim xaçı basır sinəsinə, deyir: "Bəyəm siz əvvəli bilirsiniz ki, axırı da soruşursunuz? Gedin əvvəli öyrənin, o zaman axırı bilərsiniz. Kim əvvəldə olubsa, axırda da olacaqdır!".

Şəxsən Fomanın İncili kitabında yazılıbdır. Düzdür, bəzi xaçpərəstlər bu kitabı səhih hədislərdən saymırlar, ancaq bizim nə işimizə qalıb, biz müdrik fikirləri harda olsa öyrənirik. İsa bəyin yaxşısını götürüb pisini atmalıyıq.

Sonu ölümlü dünyadır, ona görə bəlkə indidən uzanıb hamımız ölsək heç zad dəyişməz. Sadəcə, dinc quruculuq işlərini davam etdirmək üçün yaşayırıq. Bu işlərə kəndirbazlıq da daxildir. Məsələn, dünən mən bu cızmaqaranı dünya hörümçək toruna göndərən anlarda kimsə Bakıda Alov qüllələri arasına ip çəkib üstündə gəzirdi. Nəyə görə həmin gün? Nəyə görə Alov qüllələri arasında? Niyə məhz kəndirbazlıq? Buyur. Əsl semiotikadır. İşarələq haqda elm. Dörd bir yanımız alov içində olduğu üçün kəndir üzərində gəzməyi öyrənməyə borcluyuq. Şəxsən mən bu siyasəti alqışlayıram. Lazım gəlsə aşağıda brezent tutub duraram. Təki vətən saslasin!

Məsələn, Rəsul Rza 1938-ci ildə gözəl bir şeir yazmışdır. "Stalin" adlı həmin şeirdə deyir: "Gəlin, dostlar, qulaq asın, Bu ellərin nəğməsinə, Cavanların mahnısına, Körpələrin şən səsinə. Söyləyirlər bir ağızdan: Yaşa, yaşa, can Stalin! Dillərdə dastan Stalin!" Bu şeir yazılan ilin martında Anar müəllim anadan olmuşdur. İndi mən sual edirəm sizə: əgər Rəsul müəllim həmin şeiri Stalinə həsr etməsəydi sağ qalardımı, Anar müəllim atalı-analı böyüyüb xalqımızın mədəni xidmətində dura bilərdimi?

Hərçənd bəlkə də Rəsul müəllim o şeiri Anarın doğum günü münasibətilə yazırmış, son anda dəyişib "Stalin" qoyub. Bütün hallarda uzaqgörənlikdir. Müdriklərin fikri var, deyir bir insanı xilas edən adam bəşəriyyəti xilas edir. Dostoyevski deyib ki, bir körpənin göz yaşı konstitusiyadan qiymətlidir. Bizdə Bəxtiyar müəllim də yaxşı yazmışdı, qədrini bilmədik: "Mən niyə fırlanmayım, Axı dünya fırlanır!"

Yeri gəlmişkən, Cordano Brunonu Avropada bu tip sözlər üstündə tonqalda yandırıblar. Biz isə medal vermişdik. Bu da bizim Avropadan nə qədər öndə olduğumuzu, söz azadlığına sadiqliyimizi isbat edir.

Sonda xalqa bir təskinlik verək, bəzi rəylərə görə kim sovetin vaxtında çiçək xəstəliyi peyvəndi olunubsa, onların meymunçiçəyinə yoluxmaq ehtimalı azdır. Qolunda ayaqqabı izinə oxşayan ləkə olan yaşlı adamları görmüsünüz, bax, o həmin peyvəndin izidir. Sovet vaxtı belə şəhər əfsanəsi də vardı ki, guya bizim hansısa kəşfiyyatçı xaricdə o peyvənd izinin zibilinə düşüb, ələ keçib. Guya oralarda peyvəndin belə izi olmurmuş. Nə dərəcə səhih hədisdir, bilmirəm.

Mən özüm o peyvəndlilərdən biriyəm. İndi də qolumu fırladıb baxdım, "cırtdan ləpiri" yerində cağbacağ durur.

Böyüklərə hörmətlə yanaşın. Bəlkə bizim hesabımıza meymunçiçəyindən də qurtuldunuz.

# Blinken bir ildə doqquzuncu dəfə İsraildə - Qəzzada atəşkəs ümidi tükənir...

## ABŞ-ın baş diplomatı Doha danışıqlarında nəticəsizliyə baxmayaraq, yenidən Tel-Əvivə gedib, Bayden də ümidlidir, lakin Netanyahunun son bəyanatı HƏMAS-ı qəzəbləndirib

**ABŞ dövlət katibi Entoni Blinken İsrailə səfər edib. Xarici media bildirib ki, bu, 2023-cü il oktyabrın 7-də Yaxın Şərqdə vəziyyətin gərginləşməsindən sonra Entoni Blinkenin İsrailə doqquzuncu səfəridir. Blinkenin avqustun 19-da İsrail baş naziri Binyamin Netanyahu ilə görüşü planlaşdırılıb. Dohada ötən həftəsonu keçirilən atəşkəs görüşündə bir nəticə əldə edilməməsinə rəğmən, Blinkenin İsrailə gəlməsi maraq doğurur. ABŞ prezidenti Co Bayden isə hesab edir ki, Qəzza zolağında İsrail və HƏMAS hərəkatı arasında atəşkəs əldə etmək hələ də mümkündür. O, bunu Vaşinqton yaxınlığındakı Endryus hərbi bazasında jurnalistlərin suallarını cavablandırarkən deyib. Ağ Evin mətbuat fondunun məlumatına görə, ABŞ lideri saziş üzərində işin hələ də davam etdiyini deyib. "Biz təslim olmuruq, bu, hələ də mümkündür", - o, razılaşmalara toxunaraq deyib.**



İsrailin baş naziri Benyamin Netanyahu Fələstin tərəfi ilə razılaşma əldə olunması imkanlarının məhdudluğu barədə bəyanatından sonra HƏMAS ABŞ-ın girovların mübadiləsi təklifini rədd etdiyini açıqlayıb. Bu barədə İsrail tərəfini danışıqlarda təmsil edən şəxslərdən biri deyib. O bildirib ki, baş nazir Benyamin Netanyahu hazırkı mövqeyində israr etsə, razılaşma baş tutmayacaq. Başqa sözlə desək, Netanyahunun mövqeyi uğurlu nəticə imkanlarını məhdudlaşdırıb. Öz növbəsində Netanyahu da müzakirələrin müsbət nəticə verəcəyinə inanmadığını bildirib.

Bununla belə, ABŞ prezidenti Bayden tərəflər arasında danışıqların uğurla yekunlaşacağına inamını ifadə edib. Netanyahu İsrail ordusunun Qəzza sektoru ilə kəsişmədəki Filadelfiya xəttində qalmasında israr edir, lakin Fələstin tərəfi bu vəziyyətin gərginliyi daha da artıracağında israrlıdır. HƏMAS rəhbərliyi bəyan edir ki, sonradan irəli sürülən bu şərt girovların mübadiləsi üzrə təkliflər paketində göstərilməyib. Blinkenin İsraildə olduğu vaxtda isə ölkənin müdafiə qüvvələri Livan ərazisindən atılan bir neçə hava hədəfinin vurulduğunu bildirib. Livan istiqamətindən uçan bir neçə şübhəli hava hədəfi aşkar edilib. İDF-in hava hücumundan müdafiə sistemi hədəflərin bəzilərini uğurla ələ keçirib, digərləri isə Yaara yaşayış məntəqəsi ərazisinə düşüb.

Qəzza zolağında isə vəziyyət ağır olaraq qalır. Qəzzanın şimalındakı əsas xəstəxanalardan biri elektrik generatorları üçün yanacaq çatışmazlığı səbəbilə fəaliyyətini dayandırır. Qətərin "Əl-Cəzirə" telekanalı tibb müəssisəsinin nümayəndəsinə istinadən məlumat yayıb. **Əl-Avda xəstəxanasının direktoru Məhəmməd Salehin** sözlərinə görə, tibb müəssisəsi elektrik generatorları üçün yanacaq almasa, 24 saat ərzində fəaliyyətini dayandıracaq. "Bütün əməliyyatlar, ümumilikdə 56 əməliyyat təxirə salınıb. Yanacaq tezliklə verilməsə, xəstələrdə qanqren və iltihab yaranacaq. Nəticədə ya əzaların kəsəcəklər, ya da öləcəklər. Qeysəriyyə əməliyyatı da risk altında olan bölmələrdəndir", - deyə o bildirib. Bundan əlavə, telekanal Qəzzanın şimalında yerləşən Kamal Advan xəstəxanasında da yanacaq çatışmazlığından xəbər verib. Bu tibb müəssisəsi də yanacaq və dərman çatışmazlığı səbəbilə növbəti 24 saat ərzində fəaliyyətini dayandırmaq məcburiyyətində qalacaq.

**Professor Qabil Hüseynli** Qəzzada atəşkəsin tezliklə əldə olunacağına ümid bəsləmir. Onun "Yeni Müsavat"a bildirdiyinə görə, HƏMAS-ın Siyasi Bürosunun yeni rəhbəri Yəhya Sinvar İsrailə qarşı müqavimət göstərməkdə radikal baxışlara malikdir. Professorun sözlərinə görə, girovlar qarşılıqlı şəkildə mübadilə edilməyənədək hər iki tərəf döyüşləri davam etdirəcək: "HƏMAS-ın kənar güclərdən dəstəyi olmasaydı, çoxdan demilitarizasiya edilmişdi. İsrail hərbi əməliyyatlar nəticəsində xeyli sayda fələstinli döyüşçü öldürüb, Qəzzanın böyük bir hissəsini ələ keçirib, amma yetərli deyil və HƏMAS-ın əlində siyasi-hərbi güc qalmaqdadır. Ona görə İsrail ordusu nə qədər döyüşməlidir ki, HƏMAS Qəzzada tamamilə silinsin... Çünki fələstinlilər döyüşlərdə iştirak edirlər, xalq özü prosesə qoşulur. Çox çətin olacaq və atəşkəs ümidləri azalır. Bununla belə, şans itirilməyib, sadəcə, İsrail terrorçu elan edib həbsdə saxladığı həmin fələstinliləri HƏMAS-a təhvil verməlidir, buna da Netanyahu getməz".

**Q.Hüseynli hesab edir ki, Netanyahu müttəfiqlərini eşitmir və Blinkenin son səfəri də nəticəni dəyişməyəcək:** "ABŞ İsraili yola gətirmək istəyir. Vaşinqtona Yaxın Şərqdə müharibə lazım deyil. Onun əsas diqqəti Rusiyanın ərazilərində gedən döyüşlərə yönəlib. O səbəbdən Blinken hər səfərində Netanyahunu razı salmağa çalışır, amma yəhudi baş nazir inadından dönmür. Zənnimcə, Qəzza müharibəsi hələ davam edəcək. İsrail HƏMAS-ı məhv etmək yolunu tutub. Eyni zamanda İran və bəzi ərəb ölkələrinin dəstəyi azalmayıb. Yəni HƏMAS və Hizbullah kimi proksi hərbi qanadlar vasitəsilə İsrail dövlətinə qarşı müharibə aparılır. O baxımdan Qəzzada atəşkəs üçün danışıqların bir müddət davam etdiriləcəyini gözləyirəm. Qahirədən sonra Doha danışıqları da nəticə vermirsə, İsrailin hədəfi aydındır".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**



# Sülh danışıqlarının bərpa olunacağı tarix - rəy

## Politoloq: "Paşinyan hakimiyyəti təzyiq altındadır, sərbəst və ardıcıl qərarlar verə bilmir"

**2024-cü ildə sülh müqaviləsinin imzalanmasına böyük ümidlər bəslənilsə də, bu yöndə müəyyən pozitiv açıqlamalar olsa da, görünən budur ki, ilin sonunadək hansısa sənəd imzalanması inandırıcı deyil. Çünki buna uyğun şərtlər mövcud deyil.**

Əlbəttə, səbəb odur ki, Ermənistan xarici təsir dairələrinin boyunduruğundan çıxa bilmir, danışıqlardan yayınır, sülh üçün şərtləri yerinə yetirmir.

Faktiki olaraq bir neçə aydır sülh gündəliyi üzrə nə vasitəçili, nə də vasitəçisiz görüşlər keçirilmir. Başqa sözlə, sülh danışıqları baş tutmur.

Bəs hansı yeni şərtlər ortaya çıxa bilər ki, danışıqlar bərpa olunsun? Moskvanın vasitəçiliyinə Ermənistan hər vəchlə yox deyir, Qərb isə ancaq pozuculuqla məşğuldur. Bu gedişat nə vəd edir? Sonda nə baş verə bilər?

**Deputat Bəhruz Məhərrəmov Azərbaycanla Ermənistan arasında sülhün əldə olunmasına heç bir əngəlin qalmadığını qeyd etdi:** "Ötən ilin sentyabrında antiterror tədbirlərinin ardınca Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi yolunda faktiki sonuncu əngəl də aradan qalxdı. Daha konkret desək, Cənubi Qafqazda 30 illik qanlı münaqişənin ardınca Bakı və İrəvan arasında dayanıqlı sülh üçün unikal imkan yarandı. Eyni zamanda Azərbaycanın separatizmə son qoyması, Ermənistanın və havadarlarının regionda təsir rıçaqlarını tamamilə heçə endirməsi ilə yekun sülhə gedən yolda çox ciddi addımlar üçün zəmin yarandı. Belə ki, məhz Azərbaycan Prezidentinin direktivləri əsasında Azərbaycan və Ermənistan arasındakı münasibətlər beynəlxalq gündəlikdən çıxarılaraq iki ölkə arasında məsələyə çevrildi. Bundan başqa, sülh prosesi bu günə qədər vasitəçilik pərdəsi altında münaqişənin dayanıqlılığına xidmət edən subyektlərin inhisarından çıxarılaraq Azərbaycan və Ermənistan arasında birbaşa təmaslar fonunda davam etdirilməyə başladı. Həmçinin cənab İlham Əliyevin qəti mövqeyi ilə Azərbaycan və Ermənistan arasında sülh prosesi sərhədlərin delimitasiya və demarkasiyası prosesindən ayrılaraq daha effektiv formatda aparılmağa başlandı. Qeyd olunan amillər ötən il dekabrın 7-də, həmçinin bu il aprel ayının 19-u və may ayının 15-də Azərbaycan və Ermənistan arasında real iradə ifadəsi ilə nəticələndi. Ölkələrimiz ilk növbədə qarşılıqlı olaraq xoş niyyətdə bulundular, əsir mübadiləsi həyata keçirildi, habelə Ermənistan silahlı qarşıdurma olmadan, cənab İlham Əliyevin qətiyyəti ilə hesablaşaraq beynəlxalq hüquqla tanınan Azərbaycanın 4 kəndini işğaldan boşaltdı. Təbii ki, bütün bunlar Bakı və İrəvan arasında ən qısa müddətdə sülhün imzalanacağı ilə bağlı real gözləntilər yaratdı. Lakin Münxen Təhlükəsizlik Konfransının dərhal ardınca Fransanın prosesə müdaxiləsi, daha dəqiq desək, Nikol Paşinyanın Parisə dəvət olunması, Azərbaycan və Ermənistan arasında sülhün reallaşması üçün Makron tərəfindən ona təzyiqlər göstərilməsi, ardınca Ermənistanın nümayiş etdirdiyi qeyri-konstruktiv davranışlar, habelə Fransa başda olmaqla, bir sıra Qərb imperialist subyektlərinin Ermənistanı açıq formada silahlandırması regionda sülh ümidlərini yenidən dalana dirədi. Bu gün əminliklə demək olar ki, Azərbaycan və Ermənistan arasında sülh prosesinin qarşısında heç bir obyektiv əngəl qalmayıb. Yalnız Qərb imperializmi, o cümlədən Fransa, ABŞ, Avropa İttifaqı regionda münaqişələrin davamlılığını arzu edərək Azərbaycan və Ermənistan arasında yekun sülh müqaviləsinin imzalanması qarşısında əsas maneə kimi çıxış etməkdədir. Bakı müharibə yolu ilə əldə edə biləcəyi bütün nəticələrə hərbi-siyasi yolla nail olub, bu gün regionda əməliyyat şəraitinə məhz Azərbaycan Respublikası nəzarət edir. Eyni zamanda Azərbaycanın heç bir qonşusu, o cümlədən Ermənistana qarşı hər hansı ərazi iddiası mövcud deyil. Lakin Ermənistan konstitusiyasında rəsmən Azərbaycana və digər qonşulara münasibətdə ərazi iddiaları təsbit olunub və bu da Bakı və İrəvan arasında mümkün sülh müqaviləsini konstitusiyaya zidd olması fonunda etibarsızlaşdırır. Sirr deyil ki, Ermənistanın Baş naziri Nikol Paşinyan özü də dəfələrlə mövcud konstitusiyadan narazılığını ifadə edərək Ermənistanın konstitusion islahatlara getməsinin zərurətini dilə gətirib. Lakin Qərb imperializmi, xüsusən Fransa və ABŞ Azərbaycan və Ermənistan arasında yekun sülh müqaviləsinə hüquqi maneə qismində çıxış edən bu konstitusion normalara özlərinin imperialist niyyətləri naminə ümid yeri kimi baxır və İrəvana konstitusiya islahatlar keçirilməsinə imkan verilmir. Bundan başqa, Qərb dairələri Ermənistanda revanşist ideologiyanın daha da körüklənməsi, bu ölkənin yenidən işğala təşviq edilməsi, habelə qeyd edilən niyyətlərlə Ermənistanın silahlandırılması, hətta bu ölkəyə ayrı-ayrı qoşun növlərinin müəyyən etaplarda yerləşdirilməsi kimi real təcavüzkar addımlar atmaqdadır. Bütün bunlar, təbii ki, Azərbaycan Prezidentinin təşəbbüsü ilə Bakı və İrəvan arasında başlanmış sülh təşəbbüsləri üçün ciddi zərbəyə çevrilir və Ermənistanın özü üçün əslində təhdid qismində çıxış etməyə başlayır. Bu gün Azərbaycan Respublikasının şərtləri kifayət qədər aydındır, biz regionda dayanıqlı sülh arzu edirik və İrəvanla imzalanacaq sülh müqaviləsi hər hansı formada kiminsə iradəsindən asılı vəziyyətdə qalmamalı, yaxud hüquqi anlamda sual yaratmamalıdır. Konstitusion islahatları ləngitməklə, habelə Qərbin təşviqi ilə sürətlə silahlanmaqla Ermənistan göstərir ki, əslində bu ölkə hələ də reallıqlarla barışmayıb və ilk imkanda işğal dövrünün təcavüzkar status-kvosunun bərpasına çalışacaq. Təbii ki, Azərbaycan müharibə arzu etmir, lakin cənab Prezident dəfələrlə bəyan edib ki, Azərbaycan xalqının və dövlətinin maraq və mənafelərinə hər hansı təhdid yaranarsa, həmin təhdid harada yerləşməsindən asılı olmayaraq aradan qaldırılacaq".

**AMİP liderinin köməkçisi, politoloq Əli Orucov Azərbaycanın sülh prosesi ilə bağlı mövqeyinin hər zaman olduğu kimi, indi də tam aydın olduğunu vurğuladı:** "İkinci Qarabağ müharibəsindən 4 il vaxt keçib. Həmin dövrdən etibarən Azərbaycan-Ermənistan arasında sülh sazişinin imzalanması ilə müxtəlif formatlarda və səviyyələrdə görüşlər keçirilsə də, pozitiv bəyanatlar səsləndirilsə də yekun nəticə əldə olunmayıb. Ermənistanın sülh prosesini yubatması, hər dəfə müxtəlif bəhanələr gətirməsi onun məkrli məqsədlərindən xəbər verir. Ermənilər üzdə özünü sülhpərvər və kompramislərə meyilli göstərməsinə baxmayaraq, reallıqda nizamlanma prosesini pozmaqla məşğuldur. Sonuncu dəfə Böyük Britaniyada keçirilən Avropa Siyasi Birliyinin zirvə toplantısı çərçivəsində Ermənistanın baş naziri Nikol Paşinyanın Prezident İlham Əliyevlə görüşdən qaçması İrəvanın sülhlə bağlı bəyanatının qeyri-ciddiliyini və həqiqətə söykəndiyini bir daha təsdiqlədi. Azərbaycanın sülh prosesi ilə bağlı mövqeyi aydın və məlumdur. Rəsmi Bakı ən yüksək səviyyədə sülh gündəliyinə sadiq olduğunu bəyan edib. Ancaq Ermənistanın sülhlə bağlı təsəvvürləri hələ də aydın deyil. İrəvanın dəqiq nə istədiyi bilinmir. Hər dəfə müxtəlif şərtlər irəli sürür və müxtəlif bəhanələr gətirir. Problem ondan ibarətdir ki, Ermənistana daxili faktorların ciddi təsiri var. Paşinyan hakimiyyəti təzyiq altındadır, sərbəst və ardıcıl qərarlar verə bilmir. Ermənistanın vasitəsilə Qərb regionda yeni ayırıcı xətlərə rəvac verir, yeni gərginlik və münaqişə ocağı yaradır. Ermənistanın Qərb tərəfindən intensiv şəkildə silahlandırılması, ona hərbi siyasi dəstəyin verilməsi Cənubi Qafqazı ciddi risk yaradır. Kiçik bir bölgəyə NATO silahlarının kütləvi tədarükü və hansısa formada hərbi blokun yerləşdirilməsi regionu özünün nüfuz dairəsi hesab edən Rusiya ilə qarşıdurmaya sövq edə bilər ki, bunun da ciddi fəsadları dağıdıcı olar. Ermənistan bunu anlamaq istəmədən Qərbin diqtəsi ilə hərəkət edir. Məncə, Cənubi Qafqaza NATO-nu gətirməklə təhlükəsizlik və sülh əldə etmək mümkün deyil, əksinə, mənfi effekt verər, necə ki, bunun artıq işartıları görünür. Zənnimcə, Rusiya hakim elitasında da Cənubi Qafqaza baxışlar ziddiyyətlidir. İmperiyapərəst qüvvələr Ermənistanla Azərbaycan arasında normal anlaşmaya maneçilik törədir, revanşistləri həvəsləndirir. Qərbin və Rusiyadakı bəzi dairələrin Ermənistanı hər cür dəstəkləməsi İrəvanı sürətləndirir və bu da sülh prosesinin pozulmasına gətirib çıxarır. Ermənistanı yeni iddialara salır. Fikrimcə, sülhə tez nail olmaq üçün İrəvana Moskvanın, Ankaranın və Bakının təzyiqləri artırılmalıdır. Əks halda, keçmiş Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı olduğu kimi sonsuzadək sülh prosesi də davam edə bilər. İlin sonunadək təəssüf ki, hətta ABŞ və Rusiyanın sülh prosesini təşviq etməklə və dəstəkləməklə bağlı fəaliyyətinin də səmərə verməyəcəyi düşüncəsindəyəm".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

## XİN rəhbəri: "Ermənistanla münasibətləri normallaşdırmaq niyyətindəyik, lakin əsassız tələblər aradan qaldırılmalıdır"




**Azərbaycan Ermənistanla münasibətləri normallaşdırmaq niyyətindədir.**

APA RİA "Novosti"yə istinadən xəbər verir ki, bu barədə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov bildirib.

Onun sözlərinə görə, lakin İrəvanın əsassız tələbləri aradan qaldırılmalıdır.

Ceyhun Bayramov onu da qeyd edib ki, Rusiya danışıqlar üçün həmişə məqbul məkan olub.

YENİ MÜSAVAT
N 147 (8520) 20 avqust 2024

# Rusiyanın dostu Ukraynaya ixracı niyə və necə artırıb - təhlil

## Çinin iqtisadi marağı, yoxsa razılaşdırılmış məsələ?

**2024-cü ilin yanvar-iyul aylarında Çinin Ukraynaya ixracı illik ifadədə 41,9 faiz artaraq 2 milyard dollardan çox olub. Bu barədə Çin Baş Gömrük İdarəsi (GCU) məlumat yayıb. Nəşr edilən məlumatlara əsasən, Ukraynanın Çinə idxalı 6,5 faiz ixracı artaraq təxminən 3,2 milyard dollara çatıb. Nəticədə ölkələrarası ticarətin həcmi 18 faiz artaraq 5.2 milyard dolları keçib. Ukraynanın Çinlə ticarətdə müsbət saldosu təxminən 1,2 milyard dollar təşkil edib ki, bu da 2023-cü ilin yeddi ayı ilə müqayisədə 22 faiz azdır.**

Təkcə iyul ayında Çin və Ukrayna arasında ticarət dövriyyəsinin həcmi iyun ayı ilə müqayisədə 3,6 faiz artaraq 732,1 milyon dollara çatıb. Bu, Ukrayna məhsullarının tədarükünün artması hesabına baş verib: Çinin ixracı aylıq müqayisədə 7,9 faiz azalıb (311 milyon dollara), idxal 14,2 faiz artıb (421,1 milyon dollar).

Çinin Ukraynaya ixracının əsasında sadələşdirilmiş gömrük rəsmiləşdirilməsinə malik istehlak malları, avtomobillər və onların komponentləri, litium akkumulyatorlar, avtobuslar, yük maşınları və minik avtomobilləri üçün təkərlər, televiziya və telekommunikasiya avadanlıqları, smartfonlar, məişət elektrik və tibbi cihazlar, kompüterlər və bir çox başqa məhsullar dayanır.

Qeyd edək ki, 2021-ci ildə Çin-Ukrayna ticarətinin həcmi təxminən 30 faiz artaraq 19,3 milyard dollar təşkil edib. 2022-ci ildə bu rəqəm 60 faiz azalaraq 7,65 milyard dollar olub. 2023-cü ildə isə Çin və Ukrayna arasında ticarətin həcmi daha 10,8 faiz azalaraq 6,81 milyard dollar təşkil edib. Ukrayna Çinə qarğıdalı tədarükündə liderdir. Gömrük statistik məlumatlarına görə, dəyər etibarilə bu kənd təsərrüfatı məhsulu Çinin bu ölkədən idxalının demək olar ki, yarısını təşkil edir. Çinin aldığı digər Ukrayna malları tort, günəbaxan və kolza yağı, arpa, ferronikel, mal əti, soya, digər ərzaq məhsulları, xammal və yarımfabrikatlardır.

Çinin Ukraynaya ixrac etdiyi əsas məhsullar istehlak malları, elektrik avtomobilləri, litium akkumulyatorlar, avtobuslar, yük maşınları və minik avtomobilləri üçün təkərlər, smartfonlar, televiziya avadanlığı və saird.

Çin 2023-cü ilin fevralında Ukraynada konfliktin həllinə dair məşhur 12 bəndlik planla çıxış edib. Planı ölkənin Xarici İşlər Nazirliyi açıqlayıb. Planda ilk addım kimi atəşkəs elan olunması, konfliktin Rusiyanın təhlükəsizlik maraqları nəzərə alınmaqla, sərhədlərin dəyişdirilməsinin yolverilməzliyinə, ölkələrin suveren ərazilərinin toxunulmazlığına dair beynəlxalq hüquq prinsipləri əsasında həlli, əsirlərin tam azad olunması və sair məsələlər əksini tapmışdı. Lakin Ukrayna təklif olunan planın daha çox Rusiyanın maraqlarına uyğun olduğunu, münaqişənin uzun müddətə dondurulmasına gətirib çıxaracağını əsas gətirməklə onu rədd etdi. 2023-cü ilin aprelin Çin rəhbəri Si Cinpin Ukrayna prezidenti Vladimir Zelenskiyə zəng vuraraq münaqişənin həlli ilə bağlı müzakirələr apardı, ondan sonra Çinin xüsusi nümayəndə heyəti Kiyevdə oldu, ölkələrin diplomatları dəfələrlə beynəlxalq tədbirlər çərçivəsində bir araya gəldilər.



2023-cü ildə sülh təşəbbüsü Kiyev tərəfindən qəbul edilməyən Çin dron ixracına məhdudiyyət tətbiq edib. Sentyabrın 1-də Çin dronların ixracına nəzarəti tətbiq etdikdən sonra bu ölkənin şirkətləri Ukraynaya dronların və komponentlərin tədarükünü azaldıblar. "The New York Times" ticarət məlumatlarına, ukraynalı cihaz istehsalçılarına və onların operatorlarına istinadən məlumat verib ki, Çindən Ukraynaya dronların tədarükünü davam etdirməyə hazır olan şirkətlər mürəkkəb ticarət şəbəkələrindən istifadə etməkdə israrlıdırlar. Bəzi alıcılar dron komponentlərini qaçaqmalçılıq yolu ilə gətirməli və ya xaricdəki dostlarından borc almalıdırlar. NYT-nin bir çox həmsöhbəti Pekinin ixrac nəzarətinin vəziyyəti daha da pisləşdirə biləcəyindən qorxduqlarını bildiriblər. Nəşr ticarət məlumatlarına istinadən yazır ki, 2023-cü ilin ilk altı ayında Çin şirkətləri Ukraynaya 200 min dollardan bir qədər çox dəyərində dron və komponentlər tədarük edib. Britaniya Kral Birləşmiş Xidmətlər İnstitutunun məlumatına görə, Ukrayna ayda təxminən 10 min pilotsuz uçan aparat itirir.

**Ukraynanın cavab addımı özünü çox gözlətməyib. Kəşfiyyat pilotsuz uçan aparatlarının istehsalçısı "Ukrspetsistema" bildirib ki, Çindən gələn tədarük zəncirində yaranan problemlərə görə şirkət oradakı məhsulların istifadəsini demək olar ki, dayandırıb:** "Bu gün biz praktiki olaraq heç bir Çin komponentindən istifadə etmirik, çünki Çinin Ukraynaya istənilən malın çatdırılmasını qəsdən necə gecikdirdiyini görür və hiss edirik".

Çin pilotsuz təyyarələrin və dron istehsalı avadanlıqlarının ixracını "milli təhlükəsizlik və maraqları qorumaq" üçün məhdudlaşdırmaq qərarına gəldiyini elan etsə də, bunun əsas səbəb olmadığı hamıya məlum idi. Çünki ondan əvvəl Pekin hərbi sənayedə də istifadə olunan mikroçiplərin istehsalında istifadə edilən metalların ixracına nəzarəti gücləndirib.

Lakin ölkələr arasında münasibətlər bu ilin əvvəlindən etibarən ılıqlaşmağa başlayıb. Çinlə Ukrayna arasında diplomatik təmaslar ciddi şəkildə intensivləşib. İyulun sonlarında Ukraynanın xarici işlər naziri Dmitri Kuleba Çinə rəsmi səfər edib. Çin tərəfinin dəvəti əsasında baş tutan səfər zamanı Kuleba orada bir sıra görüşlər keçirib. Səfərin nəticələrini dəyərləndirən nazir bildirib ki, Çinli həmkarı Pekinin birmənalı şəkildə Ukraynanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulayıb. Əksər analitiklər, hətta rusiyalı ekspertlər belə Kulebaya Pekindən gələn dəvəti və Çin XİN rəhbərinin ukraynalı həmkarına dediklərini Rusiyaya açıq işarə kimi qiymətləndirirlər. Çin rəhbərliyi, əlbəttə, ucuz xammal mənbəyi olan Rusiya ilə dostluqda maraqlıdır, lakin 2 ildən yuxarıdır onun Ukraynada apardığı işğalçı müharibənin Pekinə yaratdığı problemlərə də dözmək fikrində deyil. Dolayı yolla da olsa, Rusiyanın hərbi sənayesini müəyyən texnoloji materiallarla təmin edən Çin həm ABŞ-ın, həm də Avropanın çox böyük təzyiqləri ilə üzləşib. Rusiyanın dəstəklənməsi Çinə getdikcə daha baha oturmağa başlayıb. ABŞ və Avropanın tətbiq etdiyi ticarət məhdudiyyətləri ölkə iqtisadiyyatına Rusiya ilə ticarətdən əldə olunandan on dəfələrlə çox zərər vurur. Özü də Avropa və ABŞ-ın addımları uzunmüddətli dövrdə Çinə daha kəskin zərər vurmağa hesablanıb və Pekində bunu çox yaxşı hesablayırlar.

Həm ABŞ, həm də Aİ Rusiyaya sanksiyalı və hərbi sənayesini inkişaf etdirən malların çatdırılmasında yardım edən Çin şirkətlərini qara siyahıya salmağa başlayıb. Ukraynada müharibə başlayandan sonra Çin Rusiyanın əsas ticarət tərəfdaşına çevrilib. Ötən il iki ölkə arasında ticarət dövriyyəsi 190 milyard dollara çatıb ki, bu da rekord göstəricidir. Rusiya prezidenti Vladimir Putin və Çin lideri Xi Jinping bildiriblər ki, 2024-cü ildə ölkələr ticarət həcmini ildə 200 milyard dollara çatdırmalıdır.

Bu ilin yanvar-iyul aylarında Çin-Rusiya ticarətinin həcmi illik 1,6 faiz artaraq 136,67 milyard dollar təşkil edib. Çinin açıqladığı gömrük statistikasına əsasən 7 ay ərzində Rusiyadan Çinə mal ixracı 3,9 faiz artaraq 75,03 milyard dollar təşkil edib. Çinin Rusiyaya satışları isə əksinə, 1,1 faiz azalaraq 61,64 milyard dollar olub. İyulda iki ölkə arasında ticarət dövriyyəsi iyun ayı ilə müqayisədə 2,7 faiz azalaraq 19,69 milyard dollar təşkil edib.

Göründüyü kimi, Cinpin və Putinin hədəflədiyi ticarət həcminə nail olmaq çətin ki, mümkün olsun. Çinin Rusiya ilə ticarəti ikincili sanksiya risklərinə görə getdikcə daha da çətinləşir.

Rusiya iş adamlarının mətbuata verdiyi məlumata əsasən, 2024-cü ilin iyul ayının ortalarından Çinin Rusiya ilə ticarətində yeni sərtləşmə qeydə alınmağa başlayıb. Çindən olan tədarükçülər Rusiyaya ixracı yalnız üçüncü ölkələr vasitəsilə həyata keçirməyə razılaşırlar. Qeyd olunur ki, yeni sərtləşdirmə əsasən sanksiyaya məruz qalan məhsullara, o cümlədən elektronikaya təsir edib. Rusiya və Çin arasında ticarətdə ödəniş problemi 2024-cü ildə ABŞ hakimiyyətinin artan təzyiqləri fonunda daha da güclənib. Artıq nəinki böyük Çin bankları, həm də bir sıra regional maliyyə təşkilatları da Rusiya ilə hesablaşmaların qarşısını almağa başlayıblar. Üçüncü ölkələr, o cümlədən Özbəkistan və Qırğızıstan vasitəsilə ödənişlərin həyata keçirilməsi sxemi də çətinləşir. Bu kanallar tədricən kəsilir.

Doğrudur, bəzi şirkətlər artıq yeni reallıqlara uyğunlaşır və yeni logistik marşrutlardan istifadə etməyə başlayır. Bununla belə, onların ardıcıl işləməsi üçün vaxt lazımdır. Bundan əvvəl Çinlə ticarətdə əsas çətinliklər əsasən pul köçürmələri ilə bağlı idi. İndi logistika sahəsində problemlər yaranıb ki, bu da çatdırılma müddətlərinin və xərclərin artmasına səbəb ola bilər. Çünki ABŞ yalnız Çin deyil, Rusiyaya malların çatdırılmasında üçüncü ölkə kimi istifadə olunan Qazaxıstan, Türkiyə, Qırğızıstana ciddi xəbərdarlıqlarını çatdırıb. Buna görə də hər üç ölkənin bankları Rusiya ilə ticarət əməliyyatlarının maliyyələşdirilməsini demək olar ki, dayandırıblar.

Başqa bir məsələ budur ki, Çinin qlobal ticarətdə ciddi rəqibinə çevrilməkdə olan Hindistan Ukrayna ilə əlaqələri sürətlə dərinləşdirir. Çin kimi Rusiyanın təklif etdiyi əlverişli ticarət şərtlərindən bəhrələnən Yeni Dehli bununla yanaşı, Rusiyanı açıq və ya dolayısı ilə dəstəkləməkdən yayınır, Qərbin qadağan etdiyi məhsulların Rusiyaya çatdırılması prosesində demək olar ki, iştirak etmir. İki gündən sonra Hindistanın baş naziri Narendra Modi Ukraynada müharibə başladıqdan sonra ilk dəfə bu ölkəyə səfər edəcək. Bu barədə Hindistanın Xarici İşlər Nazirliyi məlumat yayıb. Qurumdan səfərin avqustun 23-də reallaşacağı, N.Modinin ölkəsinin Rusiya-Ukrayna münaqişəsinin həlli üzrə vasitəçilik təklif edəcəyi açıqlanıb.

Qeyd olunanlar göstərir ki, Çin birtərəfli qaydada Rusiyanın yanında olmağın yaratdığı fəsadları hesablayaraq, siyasətində korrektələr etməyə başlayıb. Bu korrektələrin hansı həddə qədər davam edəcəyini zaman göstərəcək...

**❑ Dünya SAKİT, "Yeni Musavat"**

YENİ MÜSAVAT
N 147 (8520) 20 avqust 2024



# Afrikanı cənginə alan meymunçiçəyi dünyaya yayılsa - virus müharibəsi, yoxsa...

## **Səhiyyə Nazirliyi:** "Ölkəmizə meymunçiçəyi virusunun laborator müayinəsi üçün..."

## **Zülfüqar Yusifov:** "Bir tərəfdən viruslar, bir tərəfdən də müharibələr..."

**Dünya yeni pandemiya ilə təhdid olunur. Afrikada meydana çıxan meymunçiçəyi virusu sürətlə yayılır. Afrika İttifaqının Səhiyyə Agentliyinin yaydığı məlumatda bildirilir ki, təkcə ötən həftə ərzində 1200 yeni yoluxma qeydə alınıb. Virusun yayılan 3 növü arasında təhlükəli "Clade 1b" növü də var.**

Ümumilikdə bu ilin əvvəlindən Afrika İttifaqının 12 ölkəsində 18 737 yoluxma halı qeydə alınıb, 541 nəfər ölüb.

Faktiki dünya yeni pandemiya ilə qarşı-qarşıyadır. Bu, yeni virus müharibəsinin elementi kimi qiymətləndirilə bilərmi?

Qeyd edək ki, Afrika İttifaqının Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzi (Afrika CDC) tərəfindən paylaşılan məlumatlara görə, Afrikanın 13 ölkəsində meymunçiçəyi virusuna yoluxma halları aşkar edilib. Bu ölkələr Cənubi Afrika, Keniya, Ruanda, Uqanda, Konqo Demokratik Respublikası, Burundi, Mərkəzi Afrika Respublikası, Konqo Respublikası, Kamerun, Nigeriya, Kot-d'İvuar, Qana və Liberiyadır. Afrika CDC 13 Afrika ölkəsində yoluxma sayının 17 min 541, xəstəlik səbəbi ilə qeydə alınan ölüm göstəricisinin isə 517 olduğunu açıqlayıb. Virus səbəbindən qeydə alınan ölümlərin 97 faizi Konqo Demokratik Respublikasında baş verib.

Meymunçiçəyi Afrika qitəsindən kənarda üç ölkədə görülüb. İlk dəfə 2024-cü ildə İsveç, Avstraliya və Pakistanda aşkarlanan meymunçiçəyi virusuna bu günə qədər Avstraliyada 93, Pakistanda 3 və İsveçdə 1 yoluxma halının olduğu bildirilib.

Filippində ötən ilin dekabrından bəri meymunçiçəyinə ilk yoluxma qeydə alınıb. Bu barədə ölkənin Səhiyyə Departamenti məlumat yayıb. Bildirilib ki, müayinə nəticəsində adı açıqlanmayan 33 yaşlı şəxsin sözügedən virusa yoluxduğu ortaya çıxıb və o, karantinə götürülüb.

Qazaxıstan hakimiyyəti isə meymunçiçəyi xəstəliyinin ölkəyə keçməsinin qarşısını almaq üçün hava limanlarında və sərhəd-keçid məntəqələrində sanitar və karantin tədbirlərini gücləndirib. Bu barədə ölkənin Səhiyyə Nazirliyinin mətbuat xidməti məlumat yayıb. "Səhiyyə Nazirliyi infeksiyanın ölkəyə daxil olmasının qarşısını almaq üçün lazımi tədbirlər görüb və sanitar karantin məntəqələrində, o cümlədən hava limanlarında və sərhəd-keçid məntəqələrində nəzarət tədbirləri gücləndirilib. Bundan başqa, meymunçiçəyi xəstəliyinin qeydə alındığı ölkələrdən gələn vətəndaşlara da xüsusi diqqət yetiriləcək", - deyə bildirilib.

Nazirlik endemik ölkələrə səfər etməyi planlaşdıran vətəndaşlara müəyyən ehtiyat tədbirlərinə əməl etməyi, xüsusən də xəstə insanlar və vəhşi heyvanlarla təmasdan qaçmağı tövsiyə edib.

**Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov** "Yeni Müsavat"a deyib ki, meymunçiçəyi (yeni adı mpox) viruslu zoonozdur (heyvanlardan insanlara keçən virus), əlamətləri təbii çiçək xəstəliyinə oxşardır, lakin kliniki olaraq daha yüngül keçir. İnfeksiyanın rezervuarına bir sıra gəmiricilər və insana bənzəməyən primatlar daxildir: "Virusun ötürülməsi xəstə heyvan, insan və ya virusla çirklənmiş materiallarla təmas yolu ilə baş verir. Viruslar bədənə zədələnmiş dəri, nəfəs yolları və ya selikli qişalarla (ağız, burun, göz) daxil olur. Heyvandan insana ötürülmə dişləmə, cırmaqlama, ov ətinin yeyilməsi, bədən mayeləri ilə birbaşa və yara materialları ilə dolayı yolla baş verir. İnsandan insana ötürülmənin ilk növbədə iri respirator damcılarla baş verdiyi düşünülür. Yoluxma üçün uzunmüddətli və sıx təmas olmalıdır.

Gizli dövrü adətən 5 - 21 gündür. 5 günədək davam edə bilən başlanğıc dövrdə qızdırma, şiddətli baş ağrısı, limfa düyünlərinin böyüməsi, bel və əzələ ağrıları, bəzən kataral və mədə-bağırsaq əlamətləri rast gəlir. Qızdırmadan 1-3 gün sonra təbii çiçəyi xatırladan xarakterik qovucuqlu səpgilər yaranır. Üz nahiyəsindən başlayır və bədənin digər nahiyələrinə keçir. Ölüm hallarının tezliyi 0-10% arasında dəyişir. Əsasən risk qrupları arasında (kiçik yaşlı uşaqlar, hamilə qadınlar. İmmundefisitli şəxslər) rast gəlir. İnfeksiyanın profilaktikası qeyri-spesifik (qoruyucu gigiyenik qaydalara əməl olunması) və spesifik (vaksinasiya) tədbirlərdən ibarətdir. Əsas məqamlardan biri də xəstələrin vaxtında aşkar olunması və təcrid olunmasıdır".

**T.Eyvazov əlavə edib ki, ölkəmizdə mpox infeksiyasına yoluxma halları qeydə alınmayıb:** "İnfeksiyanın yayılmaması məqsədilə bütün ilkin profilaktik tədbirlər aidiyyəti qurumlar tərəfindən icra olunur. Ümumilikdə hazırda Azərbaycanda digər infeksiyalar da nəzərə alınmaqla epidemioloji durum sabitdir, nəzarət altındadır. Ölkəmizə meymunçiçəyi virusunun laborator müayinəsi üçün testlər və xəstəliyə qarşı lazımi dərman preparatları gətirilib. Meymunçiçəyi virusuna qarşı vaksinə gəldikdə, vaksinlər az miqdarda istehsal olunur və yalnız bu virusa endemik ölkələrə paylanılır".

**İnvaziv ağrı mütəxəssisi Zülfüqar Yusifov mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini bildirib:** "Meymunçiçəyinin getdikcə yayılması barədə məlumatlar artır. Bu virus dünyada yeni deyil, ilk dəfə 1958-ci ildə Danimarkada tədqiqat məqsədləri üçün istifadə edilən meymunlarda aşkar edilib. 1970-ci ildə Konqo Demokratik Respublikasında 9 aylıq bir uşaqda görülən virus "insanlardakı ilk meymunçiçəyi diaqnozu" olaraq qeydə alınıb. Həmin dövrdə virusun yayılması Qərbi və Mərkəzi Afrika ölkələri ilə məhdudlaşdırdı. Bu virusun əlamətləri digər viruslar kimi, temperatur, baş ağrısı, halsızlıqla müşayiət olunur. Bununla yanaşı, həm də dəridə qaşınma, suluxlanmış yaralar və sairə əlamətlər olur. Meymunçiçəyinin yoluxuculuğunda bir qədər fərqlilik var, yəni dəridən keçməsi mümkündür. Xüsusilə dəridə tamlığın pozulması və sıyrıntı halları olduğunda, bu, narahatedici bir məqamdır. Hazırda qlobal olaraq bu virusla bağlı elə bir təşviş yoxdur. Prosesin epidemiya halına gəlməsi haqda danışmaq tezdir. Amma yaxın dövrlərdə yaşadığımız COVİD-19 təcrübəsi narahat olmağa əsas verir. Çünki COVİD-19 da virus kimi həyatımıza daxil olmuşdu. Pandemiyanın bitməsi bu virusun bitməsi demək deyil. Bu da digər viruslar kimi zaman-zaman yoluxduğumuz qrip ştamları kimi əlverişsiz şərait olduqda həyatımızda hiss olunacaq. Xüsusən iqlim dəyişikliyi nəticəsində ayrı-ayrı insanların immun sistemlərində olan problemlər özünü göstərəcək. Virusdan qorunmaq tədbirlərinə ciddi şəkildə əməl etmək lazımdır. Bununla bağlı artıq hər birimiz məlumatlıyıq, həm səhiyyə qurumları, həm də insanlar. 3-4 il pandemiyanın ağır faciəsindən dərs almışıq. Məsafə saxlamaq, gigiyena qaydalarına riayət etmək, bundan əlavə, orqanizmin immun sisteminin yüksəlməsi üçün çalışmaq lazımdır. Qidalanma rejiminə diqqət etmək lazımdır. Açıq havada çox olmaq lazımdır. Xəstə olan, xəstəliyindən şübhələndiyimiz insanlardan uzaq olmaq lazımdır. Yoluxma təhlükəsi olan ölkələrə olan səfərlərin ertələnməsi vacibdir. Əlbəttə, dünya dəyişir, virus pandemiyaları bir tərəfdən, müharibələr də bir tərəfdən, bu bəlalardan qurtulmaq üçün insanlar arasında birliyin, əməkdaşlığın olmasına ciddi ehtiyac var".

**Yeri gəlmişkən, ölkəmizdə uşaqlar arasında göyöskürəyin yayıldığı bildirilir. Valideynlərin bununla bağlı şikayəti çoxalıb. Pediatr Vaqif Qarayev də bizimlə söhbətdə deyib ki, göyöskürək öskürək tutmaları ilə gedən və ciddi ağırlaşmaları olan yoluxucu xəstəlikdir:** "Bu xəstəlikdən qorunmağın yeganə yolu peyvənddir. Bu xəstəliyə qarşı peyvənd (GDT və ya rusca AKDS) uşağın yaşına uyğun olaraq bir neçə dəfə aparılır. Yəni uşaq cəmi bir və ya iki dəfə peyvənd olunubsa, bu, tam vaksinasiya deyil. Təkcə sosial şəbəkələrdə valideynlərin həyəcanını oxumaq kifayətdir ki, vəziyyəti bilək. Mütləq sahə həkiminə məlumat verilməlidir".

**Afaq MİRAYİQ, "Yeni Müsavat"**

# Azərbaycanda 15 milyona stadion tikiləcək



**Gəncə şəhər stadionunun tikintisi üçün 15 milyon manatlıq müqavilə imzalanıb.**

Musavat.com "Trend"ə istinadən xəbər verir ki, Gənclər və İdman Nazirliyinin elan etdiyi "Gəncə şəhər stadionunun yenidən qurulması üzrə işlərin (birinci mərhələ) satın alınması" tenderinin qalibi "İnşaatçı 3" MMC olub.

Şirkətlə 15 milyon 84 min 799 manat dəyərində müqavilə imzalanıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Gəncə şəhər stadionunun təməlini qoyub.

YENİ MÜSAVAT
N 147 (8520) 20 avqust 2024



# Belarusda ara qarışır - Lukaşenkodan ilginc açıqlama

## “Batka”nın vida çıxışı, yoxsa...

**Belarusda vəziyyət qarışa bilər. Uzun zamandır bu ölkə, konkret Aleksandr Lukaşenko hökuməti ilə bağlı planlar hazırlanırdı. Deyəsən, artıq Belarusda vəziyyət kifayət qədər gərgindir və reallıqları “Batka” özü də dərk edir.**

Belarus prezidenti Aleksandr Lukaşenko bildirib ki, ölkə sakinlərini dövlət başçısı postundan getməsinə hazırlayır.

Bu barədə Belarus lideri “Rossiya” telekanalına müsahibəsində danışıb.

“Mən insanları prezidentlikdən getməyə hazırlayıram, heç bir məyusluq və uğursuzluq olmasını istəmirəm. Biz bu yaxınlarda dəyişikliklər edərək Belarus konstitusiyasını yenidən yaratdıq. Amma biz dəyişiklik istəmirik, çünki bir növ inqilab olsun.

Mən inqilabi deyil, təkamül dəyişikliklərinin tərəfdarıyam. Və bu illər ərzində indi gördüyünüzü qurmaq üçün çox şey etdik. Bəzilərinin xoşuna gəlir, bəzilərinin xoşuna gəlmir, amma ümumiyyətlə insanlar özlərini rahat hiss edirlər", - deyə o bildirib. (Report)

O, həmçinin deyib ki, Belarus ordusunun demək olar ki, üçdə birini Ukrayna ilə sərhədə yerləşdirmək məcburiyyətində qalıb.

Lukaşenko diqqətə çatdırıb ki, Ukrayna Belarusla sərhədləri yaxınlığında 120 mindən çox hərbi qulluqçu saxlayır.

**Prezident xatırladıb ki, Rusiyadan iyunun sonu, iyulun əvvəlində Belarusun Müstəqillik Günü paradında iştirak etmək üçün aviasiya və quru qoşun hissələrinin bir çoxu gətirilmişdi:** “Ukraynalılar o zaman Rusiyanın Belarus ərazisindən hücuma keçəcəyini düşünürdülər. Və onlar (Ukrayna - qeyd) 120 min hərbi personanı sərhədə köçürməyə başladılar. Cavab olaraq ordunun üçdə birini Ukrayna ilə sərhədə yerləşdirməyə məcbur oldum. Müharibə, müdafiə zamanı olduğu kimi, bütün sərhəd boyu hərbçilərimizi gətirdik və müəyyən nöqtələrə yerləşdirdik. Üstəlik, orada xüsusi təyinatlılar - "Alfa", “Almaz” və başqaları işləyir, öz işlərini görürlər".

**Lukaşenko onu da vurğulayıb ki, Belarus qoşunlarının yaxın vaxtlarda sərhəddən çıxarılması istisna olunur:** “Bizim qoşunlarımızı Ukrayna ilə sərhəddən çıxarmaq ölüm kimidir”.

Belarusa Ukraynadan hücum və ardınca daxildə inqilab ssenarisi artıq işə düşür, yoxsa başqa məsələlər də var?

**Siyasi təhlilçi Sona Əliyeva hazırda Rusiya-Belarus münasibətlərinin isti olmadığını söylədi:** “Belarusun taleyi, həmişə olduğu kimi, yenə də Rusiyadan asılıdır. Əgər Kreml Minskdən əlini çəkərsə, o zaman prezident Lukaşenkonun "qələmi qırıla" bilər. Çünki hazırda Rusiya ilə Belarus arasındakı münasibətlər Kursk hadisələri fonunda elə də isti deyil. Gərginləşməyə səbəb Belarusun öz sərhədləri daxilindən Ukraynaya əks-hücum üçün icazə verməməsi göstərilir. Görünən odur ki, Lukaşenko da vəziyyəti dərindən təhlil edir və hakimiyyətdən gedəcəyini də gözə alır. Rusiyanın gücünü arxasında hiss etmədən “Batka”nın kürsüsü üçün qolların çırmayıb xalqa qarşı dirəniş göstərəcəyi istisna deyil. Artıq belaruslular da onun yarıtmaz iqtisadi “islahatlarından” təngə gəliblər. Belarus baş verən geosiyasi oyunlar fonunda ölkələrinin üzləşdiyi çətinliklərdən cana doyublar. Qərb nəşrləri hesab edirlər ki, bu cür iqtisadi çətinliklərin və sanksiyaların davamı gələrsə, gələn ilin yazına qədər Belarusda aclıq və səfalət başlayacaq. Bu da xalqın küçələrə axışması, legitim prezidentin kürsüsünü qoyub Moskvaya qaçması ilə nəticələnəcək. Yəqin ki, Lukaşenko da “getməyə hazırlaşıram” deməklə məhz buna işarə edir. Moskva Lukaşenko kartını başqası ilə əvəzləyə bilər, amma Belarusu əldən verməyəcək. Düşünürəm ki, belarusluların narazılığı fonunda “Batka”nı yeni sima əvəzləyəcək. Hətta Türkmənistan variantı, “ata-oğul” kartı da istisna deyil".

**AĞ Partiya başqanının I müavini, siyasi şərhçi Əhəd Məmmədli Belarusun Rusiyadan asılı duruma düşməsində Qərbi suçlu bilir:** “Fikrimcə, Lukaşenko könüllü iqtidarı yavaş-yavaş verir. Ola bilsin ki, bu Qərblə hansısa anlaşmada olsun. Məsələn, Qərb Rusiya ilə qarşıdurmada Lukaşenko və ailəsinin təhlükəsizliyini təmin edəcək. Belarusu da cəzalandırmayacaq. Və yaxud da Lukaşenkonun bu addımı həm də Rusiyadan asılılığını azaltmaq üçün düşünülüb. Qərb keçən prezident seçkilərində siyasətdə naşı Tixanovskaya kimi avantüristi dəstəkləməklə Belarusu Rusiyanın qucağına atdı. Yoxsa Lukaşenko gerəkliyində Moskvaya dişini göstərən siyasi liderlərdən idi. İstənilən halda dəyişən dünyada Lukaşenko da görür ki, o da, dövləti də dəyişməlidir. Bu məsələdə əsas nüans da budur. Fikrimcə, Ukraynanın Belarusa hücumu Qərbin Minsklə münasibətlərində növbəti səhvi olar və birdəfəlik Belarusu Rusiyanın yanında edir. Üstəlik, hesab edirəm ki, Ukrayna o gücdə deyil ki, iki cəbhədə vuruşsun. Belarusa gözlənilən hücum Ukrayna üçün ikinci cəbhəni açmaq anlamına gəlir. Düşünürəm ki, indiki halda bu Kiyev üçün o qədər də arzu olunan ssenari deyil”.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu Batkanın belə bir fikrə düşməsini yaşı ilə əlaqələndirir**: “Lukaşenko ancaq özünün və hakimiyyətinin maraqlarından çıxış edir. Bu gün Moskvadan asılıdır deyə Rusiya ilə ittifaqı gücləndirir, Putinin əmrlərini yerinə yetirir. Sabah Rusiya büdrəsin, Putin zəifləsin, birinci Kremldən uzaqlaşan məhz Lukaşenko olacaq. Lukaşenko ingilislərin "Böyük Britaniyanın dostları yoxdur, əbədi maraqları var" prinsipindən çıxış edir. Əslində Rusiyadan asılılığı var deyə bu ittifaqda yer alır. Hesab edirəm ki, Ukraynaya qarşı aparılan işğalçı müharibəni daxilən Lukaşenkonun özü belə dəstəkləmir. Təsadüfi deyil ki, rus kanallarına verdiyi son müsahibədə dedi ki, müharibəni dayandırmaq lazımdır. Baxmayaraq ki, Rusiyanı dəstəkləyir. Müharibə hamını uçuruma aparır. Lukaşenko başa düşür ki, Rusiya Belarusdan da istifadə etmək istəyir. İstisna etmirəm ki, Ukraynanın Rusiya ərazilərinə müdaxiləsinə cavab olaraq Putin istəyə bilər ki, Belarus ərazisindən Ukraynaya qarşı ikinci cəbhə açsın. Lukaşenko da bilir ki, bu, Belarusu ölümcül vəziyyətə gətirib çıxara bilər. Amma Putindən asılılıq hələ ki davam edir. Lukaşenko hakimiyyətini ötürmək istəyir. Çünki yaşlaşıb. Lukaşenko o liderlərdəndir ki, hakimiyyətini kimə gəldi yox, inandığı adama hakimiyyəti etibar edəcək. Varisliyin davam etdirilməsinə çalışacaq. Hətta ara-sıra övladının da adını çəkib. Belə bir variant da mümkündür. Çalışacaq ki, ilk növbədə özünün və ailəsinin təhlükəsizliyi təmin olunsun, onun yürütdüyü siyasət davam etdirilsin".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# Ukraynanın Kursk həmləsinin pərdəarxası

**Lap əvvəlcə onu deyək ki, İranda ruhani elitası və sistemi çox böyük qüvvə olsa da, hər halda, mütləq mənada həlledici də deyil. Prezident seçkilərinin ikinci turu ərəfəsində deyirdilər ki, mühafizəkarların birinci turda bölünmüş səsləri birləşəcək və seçicilər mühafizəkar S.Cəliliyə səs verəcəklər.**

**Hüseynbala SƏLİMOV**



**“Bu tezliklə ehtimal etmirdik, amma təəccüblənmirik də!” - güman ukraynalıların Kurska ən azı hələlik davam edən çox uğurlu hücumunu şərh edən ağıllı və təcrübəli siyasi təhlilçi belə deyərdi, çünki burada bir neçə çox mühüm və ciddi məqam var.**

Birincisi, bir neçə ay bundan əvvəl Ukraynanın müttəfiqləri ona müharibəni Rusiyanın içərilərinə doğru keçirməyə icazə verəndə aydın idi ki, hansısa məqamda ruslar da müharibəni çox yaxınlıqda hiss etməyə və hətta yaşamağa başlayacaqlar.

Üstəlik, çox ağrılı və həm də çətin bir siyasi qərar olmuşdu bu, ABŞ və Böyük Britaniya kimi dövlətlər əvvəl tərəddüd edir və razılıq vermək istəmirdilər. Vaşinqton hətta bununla bağlı ciddi şərt də qoymuşdu: Rusiyanın içərilərinə doğru cəbhənin dərinliyi 200 mili aşmamalıdır!

Odur, heç təsadüfi deyil ki, ukraynalılar Kurska hücum edəndə amerikalılar əvvəlcə bunun onların verdikləri yeni hərbi texnika ilə bağlı olduğunu inkar etdilər. Yalnız bir-iki gündən sonra bəyan etdilər ki, onlar Kurska hücumu Kiyevin özünümüdafiə aktı hesab edir və onu tam dəstəkləyirlər. Artıq tərəddüdlər arxada qalıb, hamı yenə də Ukraynanın tərəfindədir və onu müdafiə edir.

İkincisi, ABŞ-dakı prezident seçkilərinə üç aydan da az vaxt qalıb. Avqustun əvvəllərində seçkinin konfiqurasiyası tamamilə dəyişdi - demokratlar seçkiyə yeni namizədlə getməyə qərar verdilər və vitse-prezident K.Harris onların yeni namizədi oldu. Xanım Harris çox tez bir zamanda seçkinin ümumi atmosferini dəyişə bildi və indi hamı ən azı qəbul edir ki, D.Trampın çox ciddi rəqibi peyda olub.

Düzdür, qarşıdan debatlar gəlir və yalnız birinci debatdan sonra nəsə təqribi bir şey demək olar. O ki qaldı Ukrayna məsələsinə, Demokratlara bir neçə istiqamətdə çox ciddi dəyişiklik lazım idi. Bunlardan ən birincisi də Rusiya-Ukrayna müharibəsidir. Demokratlar seçicilərinə göstərməlidirlər ki, onların siyasəti düzgündür və Rusiya ilə müharibə aparmaq, Ukraynanı dəstəkləmək elə də mənasız və ya perspektivsiz iş deyil. Üstəlik, çox uğurlu Kursk kimi bir əməliyyat həm də onların seçki aktivinə yazıla biləcək bir olay sayıla bilər.

Üçüncüsü, ukraynalılar ruslardan geri xalq deyil. Vaxtilə Ukrayna Rusiyadan sonar SSRİ-nin iqtisadiyyatca və səhv etmirəmsə, həm də ahalicə ikinci böyük respublikası idi. Rusların bütün böyük uğurlarında, o cümlədən də hərbi uğurlarında onların böyük payı vardı. Bir sözlə, onlar kiçik Gürcüstan deyillər. Həm də çeçenlər kimi kiçik bir xalq elə bir beynəlxalq dəstək olmadan Rusiya hərbi mifini dağıda bilmişdisə, niyə bunu on milyonlarla ukraynalı edə bilməsin, xüsusən də nəzərə alanda ki, rusların onlarla böyük sərkərdəsi milliyyətcə ukraynalı olub!

Ona görə də Kursk əməliyyatında təəccüblü bir şey yoxdur. İndi hamını başqa sual düşündürür: bu əməliyyat davamlı olacaqmı? Biz bu sətirləri yazan zaman deyilirdi ki, ukraynalılar 82-dən çox yaşayış məntəqəsini nəzarətə götürüblər. Amma böyük cəbhəni nəzarətdə saxlamaq üçün çox böyük resurslar lazımdır. Ruslar Kiyevin bu uğurunu hələ də ötəri taktiki uğur hesab edirlər. Amma ümid edirik ki, belə olmayacaqdır, ukraynalılar öz ilk böyük hərbi uğurlarını əldə saxlaya biləcəklər. Bu, onlara gələcəkdə Rusiya ilə danışıqlarda üstün mövqe təmin etmək və Rusiyanın işğal etdikləri əraziləri qaytarmaq üçün sövdələşmə predmeti kimi lazım olacaq. Həm də ruslar müharibədən o vaxt imtina edəcəklər ki, hərbi maşınlarının sındığını hiss edəcəklər. Bu isə tamam realdır, ona görə ki, Ukraynanı az qala bütün dünya müdafiə edir. Rusiyanın yanında isə real olaraq bir A.Lukaşenkodan başqa heç kim yoxdur. Bu adam isə doğrudan - doğruya belə hesab edir ki, guya Belarus da nüvə dövlətidir! Halbuki SSRİ-nin vaxtlarında müttəfiq respublikaların demək olar ki, hamısında nüvə silahı vardı, amma təkcə Moskvadan başqa heç kim onların harada olduğunu və necə idarə edildiyini bilmirdi, çünki “nüvə çamadanı” yalnız və yalnız Kremlin, SSRİ rəhbərinin sərəncamında idi.

YENİ MÜSAVAT
N 147 (8520) 20 avqust 2024

# Rusiya-Ukrayna müharibəsində ən gərgin faza - yeni hücum hazırlanır

## Kursk vilayətində əsas təchizat xətti olan üçüncü körpü də vuruldu, "Əhməd" batalyonunun komandanı Ukraynanın daha bir istiqamətdə hərəkətə keçəcəyini açıqladı, Donbasda da qırğın gedir; Lukaşenko nüvə bombası anonsu verdi



**Ukrayna Silahlı Qüvvələri (USQ) Kursk yaxınlığında Seym çayı üzərindəki üçüncü körpüyə zərbə endirib. Məlumata görə, hazırda Kursk vilayətində körpünün üç girişi də dağıdılıb. Sərhəd bölgəsindəki Rusiya hərbçiləri tamamilə ponton körpülərlə təmin edilir ki, bu da dinc sakinlərin təxliyəsini davam etdirməyə imkan verir. Habelə, Ukraynanın Kursk vilayətinə pilotsuz uçuş aparatları ilə növbəti həmləsinin qarşısı alınıb. Rusiyanın Müdafiə Nazirliyi belə məlumat yayıb. Bundan əlavə, Rusiyanın Rostov vilayətinin Proletar şəhərindəki kombinatın PUA hücumu nəticəsində vurulması ilə baş verən yanğından sonra şəhərdə fövqəladə vəziyyət elan edilib. Proletar rayonunun administrasiyası məlumat yayıb.**

Rusiya Silahlı Qüvvələrinin Baş Hərbi-Siyasi İdarəsinin rəis müavini, "Əhməd" xüsusi təyinatlılarının komandanı, general-mayor Aptı Alaudinov isə deyib ki, Ukrayna ordusu Kursk istiqamətində yeni bölgədə hücuma keçmək cəhdi ilə yenidən yerləşdirilir. "Vəziyyət nəzarət altındadır. Dünən çox ağır gün idi, düşmən bir neçə hücum dalğası təşkil etmişdi. Amma irəliləyən düşmənin canlı qüvvəsi, bəzi avadanlıqları məhv edildi. Düşmən hücum üçün yenidən mövqelərini dəyişir", - Alaudinov bildirib.

Rusiya əraziləri ilə yanaşı, Ukraynanın separatçı regionu Donbasda da ağır döyüşlər davam edir. Rusların ağır itkiləri onların Pokrovsk istiqamətində irəliləməsini çətinləşdirir. Ukraynalı zabit Nikolay Koval deyib ki, onlar ilk növbədə yola çıxmaq istəyirlər: "Bu, təkcə Pokrovsk vasitəsilə ola bilməz. Ola bilsin ki, Mirnoqraddan da keçsin. Düşmən irəliləməyə çalışır, lakin ağır itkilərə görə o da bunu edə bilmir, çünki biz əlimizdən gələni edirik ki, nə piyada, nə də texnika keçə bilməsin".

Göründüyü kimi, Ukrayna-Rusiya müharibəsi ən gərgin və kritik mərhələyə keçib. Heç şübhəsiz ki, Rusiya müharibənin artıq onun ərzisində getməsinə olduqca aqressiv cavab planlaşdırır. Hələ xeyli müddət öncədən Medvedyev və digər rəsmilər səviyyəsində açıqlama verilirdi ki, Rusiyaya təhdidlər artarsa, onun ərazisinə girilərsə, nüvə silahından istifadə edəcəklər. Artıq dünya nüvə təhdidi ilə üz-üzədir. Ancaq o da şübhəsizdir ki, Rusiya Ukraynaya nüvə bombası atarsa, qarşılığında Rusiyaya da analoji hücum ola bilər. Bu isə bütövlükdə bölgə üçün fəlakət deməkdir. Bu arada Zaporoje AES ətrafında təhlükəli vəziyyət yaranması barədə açıqlamalar gəlir. "Rusiya taktiki nüvə silahından istifadə edərsə, Ukrayna buna çox sevinər". **Belarus prezidenti Aleksandr Lukaşenk**o "Rossiya" telekanalına müsahibəsində belə deyib. Lukaşenko Ukrayna Silahlı Qüvvələrinin Rusiyanın Kursk bölgəsinə müdaxiləsi barədə danışarkən deyib ki, bu, münaqişənin eskalasiyasına gətirib çıxarır: "Təhlükə ondan ibarətdir ki, Ukrayna tərəfindən bu cür eskalasiya Rusiyanı asimmetrik hərəkətlərə sövq etmək cəhdidir. Yaxşı, nüvə silahından istifadəni götürək. Mən dəqiq bilirəm ki, Rusiya və ya biz (Belarus-red.) orada taktiki nüvə silahından istifadə etsək, Ukrayna çox şad olar. O zaman çətin ki, bizim müttəfiqimiz qalar. Ümumiyyətlə, heç bizə rəğbəti olan ölkə də qalmaz. İkincisi, bu, nüvə silahıdır. Bizdə artıq nüvə silahları haqqında müəyyən neqativ təsəvvür formalaşıb. Ona görə də onlar (Rusiyanı) buna itələmək istəyirlər".

Bir sözlə, hazırda baş verənlər Rusiya-Ukrayna savaşında son həmləi kimi görünmür, hələ "qiyamət" qabaqdadır. Çünki NATO Rusiyanın "axilles dabanı"nı Kurskda və sərhədyanı digər vilayətlərdə tapıb. Zelenski də irəliləməyin vacibliyindən danışır. Rusiya Federasiya Şurasının Beynəlxalq Əlaqələr Komitəsi rəhbərinin birinci müavini Vladimir Cabarov isə hesab edir ki, Ukrayna ordusunun Kursk vilayətinə hücumu prezident Vladimir Zelenskinin böyük səhvidir. "O, əvvəllər döyüşə girməmiş yeganə ehtiyatını göndərdi. Amma digər cəbhələrdə məğlubiyyətə uğrayır. Biz sakitcə Donetsk bölgəsini addım-addım azad edirik, şərq cəbhəsində Zaporojyeyə doğru irəliləyirik", - Cabarov bildirib. "The Times" nəşri yazıb ki, əgər Putin güzəştə getməsə və danışıqlardan imtina etsə, Kiyevin Kursk bölgəsində qalmaqdan başqa yolu qalmayacaq.

**Siyasi ekspert Fuad Əliyev Ukraynanın nəticə qazanmasını gözləmir. Onun qəzetimizə dediyinə görə, Kiyev uğursuzluğunu Kurskda kompensasiya etməyə çalışır:** "NATO generallarının hazırladığı bu strategiya əslində ukraynalı hərbçiləri sonda tələyə salacaq. Çünki Ukrayna ordusu uzun müddət Kurskda tab gətirə bilməz. Rusiyanın şəxsi heyəti Ukraynadan bir neçə dəfə çoxdur. Bunu Zelenski də etiraf edib. Düzdür, indi istehkamlar qurmağa, əraziləri minalamağa çalışırlar, amma Rusiyanın "B" və "C" planları həmişə var, ona görə bu situasiyadan çıxacaqlar. Avdeyevka, Baxmut, Çasov-Yar kimi istiqamətlərdə rus qoşunları böyük itkilər naminə olsa belə, əraziləri tutmağı bacarıblar, o zaman Kurskda da aparılan hərbi əməliyyatlarda rus ordusu ukraynalıları sıxışdırıb sərhədlərindən uzaqlaşdırmağı bacaracaq".

**Siyasi şərhçi Ramiyə Məmmədova müharibənin iki cəbhədə getdiyini hesab edir:** "Rus ordusu Donbasda, Ukrayna Kurskda irəliləməyə çalışır. Ruslar Pokrovsk cəbhəsindəki qüvvələrinin bir hissəsini Kurska göndərməyə məcbur olub. Hiss olunur ki, tərəflər bir-birinin ərazisində uğur əldə etməklə masada əlini gücləndirmək niyyətindədir. Amma bu gedişat atəşkəs üçün yer saxlamır. Xüsusən də kollektiv Qərb Rusiyanın dərinliklərinə müharibəni keçirməklə destabilizasiya yaratmaq hədəfindədir. Burada məqsəd Ukrayna ordusunun qələbəsi deyil, gələcəkdə zəif Rusiya görmək planıdır". **Ekspertin fikrincə, indi Moskva və Kiyev nə qədər tez masaya otursalar, hər ikisi üçün itkilər baxımdan vacib olardı:** "Çünki silah satan, qazanan dövlətlər onları vuruşdurur, hər iki dövlətin iqtisadiyyatı, şəhərləri hücumlara məruz qalır. Ukraynanın böyük hissəsi dağılıb, Avropa və ABŞ-ın müharibədən sonra verdiyi pullarla şəhərləri bərpa etmək mümkün olsa belə, yenə də dəymiş zərər fantastikdir. Rusiya da strateji olaraq sıxışdırılmış halda görünür. Odur ki, tezliklə müharibəni dayandırmaq, qarşılıqlı güzəştlər çərçivəsində atəşkəs əldə edərək sülh danışıqlarına başlamaq lazımdır. Hərgah bu alovlu müharibə ilə bunu görə bilmirəm..."

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

## İran ABŞ-ın Ermənistanda mövcudluğuna müsbət yanaşmır



**İranla Ermənistan arasında münasibətlər kifayət qədər konstruktiv və yaxındır.**

APA xəbər verir ki, bu barədə İran Xarici işlər Nazirliyinin sözçüsü Naser Kənani dünənki mətbuat konfransında deyib.

Onun sözlərinə görə, iki ölkə arasında dostluq və hərtərəfli münasibətləri inkişaf etdirmək üçün ümumi bir arzu var: "Hər iki tərəf regionda sabitliyin və təhlükəsizliyin, eləcə də sərhədlərdə təhlükəsizliyin qorunmasını vurğulayır.

Biz ölkələrin bir-biri ilə ikitərəfli məsələlərini şərh etmirik, amma vurğuladığımız odur ki, ABŞ-ın bölgədə mövcudluğuna müsbət yanaşmırıq".

# Türkiyədə meşə yanğınları - hər il təkrarlanması təsadüfdür, yoxsa...

## Yücel Karauz: "Bu, bir terror təxribatıdır"

**Türkiyədə turistik bölgələrdə hər il yanğınlar baş verir. Maraqlıdır ki, bu fəlakətlər təkrarlansa da, növbəti illərdə önləyici tədbirlər görmək mümkün olmur, yaxud görülmür.**

Hazırda İzmirdə güclü yanğınlar davam edir.

Türkiyə hökuməti bir həftə ərzində meşə yanğınlarından zərər çəkmiş dörd vilayətdən 4 minə yaxın sakini təxliyə edib.

Təbii Fəlakətlərin İdarə Olunması İdarəsinin (AFAD) yaydığı məlumata görə, son bir həftə ərzində ölkə ərazisində 131 kənd təsərrüfatı və meşə yanğını baş verib: "AFAD Fəlakətlərə Cavab Planı çərçivəsində havadan və qurudan dərhal tədbirlər həyata keçirib. Yanğının nəzarət altına alındığı ərazilərdə zərərin qiymətləndirilməsi və bununla bağlı tədbirlər həyata keçirilir".

Qeyd edilib ki, ola biləcək insan təlafatının qarşısını almaq üçün yanğınların yaxınlığında yerləşən yaşayış məntəqələrində yaşayan vətəndaşlar AFAD, polis və jandarm qüvvələri tərəfindən təhlükəsiz ərazilərə təxliyə edilib.

Bununla əlaqədar İzmirdə 1430, Manisada 1475, Boluda 516, Aydında 550 nəfər təxliyə edilib.

Ölkənin kənd təsərrüfatı naziri İbrahim Yumaqlı isə bildirib ki, cümə axşamı səhərindən indiyədək baş verən 247 meşə yanğınından 241-i nəzarət altına alınıb.

"Bizi narahat edəcək bir yanğın belə qalmayıb", - deyə o, TRT Haber televiziyasında bildirib.

Daxili işlər naziri Ali Yerlikaya yanğına səbəb olan 7 nəfərin həbs edildiyini açıqlayıb.

Türkiyə mətbuatının yaydığı digər məlumata görə isə təqribən ötənilki dövrdə yenidən baş verən yanğınlarla mübarizəyə ümumilikdə 39 helikopter, 10 təyyarə, 458 texnika və iki min nəfərlik canlı qüvvə cəlb edilib. Alovlarla mübarizəyə dəstək məqsədilə Türkiyənin Milli Müdafiə Nazirliyi tərəfindən bölgəyə ölkənin Hərbi Hava Qüvvələrinə məxsus 13 helikopter göndərib.

Aydındakı yanğınların söndürülməsinə 7 təyyarə, 15 helikopter, çox sayda texnika və təxminən 370-ə yaxın canlı qüvvə cəlb edilib. İzmirdəki yanğınların söndürülməsində isə 3 təyyarə, 15 helikopter, çox sayda texnika və canlı qüvvə iştirak edir.

Ölkənin Manisa vilayətində də meşə yanğınları ilə mübarizə davam edir. Gecə boyu qurudan aparılan söndürmə işlərinə səhər saatlarından etibarən aviasiya vasitələrləri dəstək verir. Hazırda bölgədə 7 helikopter fəaliyyət göstərir.

Ölkənin Bolu vilayətində də vəziyyət eynidir. Sıx meşəlik ərazidə başlayan yanğının söndürülməsinə Bolu ilə yanaşı, ətraf vilayətlərdən də hava vasitələri cəlb olunub. Bölgədə 12 helikopter, çox sayda yanğınsöndürən avtomobil və 1500-ə yaxın canlı qüvvənin iştirakı ilə alovla mübarizə fasiləsiz davam edir.



Qardaş ölkədə baş verən yanğınlarla əlaqədar olaraq Azərbaycan tərəfi meşə yanğınlarına kömək etməyə hazır olduğunu və "BE-200ÇS" amfibiya tipli təyyarəsinin kömək üçün Türkiyəyə göndəriləcəyini bildirib. Avqustun 17-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə zəng edərək Azərbaycanın lazımi dəstəyi göstərməyə hazır olmasının yüksək qiymətləndirildiyini deyərək, yanğınların söndürülməsində məhz "BE-200ÇS" amfibiya tipli təyyarəyə ehtiyacın yarandığını vurğulayıb və bu təyyarənin Azərbaycandan Türkiyəyə göndərilməsi ilə bağlı qərara görə minnətdarlığını bildirib.

Cavabında İlham Əliyev "BE-200ÇS" amfibiya tipli təyyarənin qısa zamanda Türkiyəyə göndəriləcəyini deyib və qeyd edib ki, yanğınların qarşısının alınması ilə bağlı Azərbaycan qardaş ölkəyə istənilən əlavə dəstəyi göstərməyə hazırdır.

Elə həmin gün - avqustun 17-də dövlət başçısının tapşırığı ilə Fövqəladə Hallar Nazirliyinin müvafiq yanğın-xilasetmə qüvvələri qardaş ölkəyə yola düşüb və ən qısa müddətdə yanğınlarla mübarizə əməliyyatına başlayıb.

Türkiyənin aparıcı media orqanları ölkənin müxtəlif bölgələrində baş verən irimiqyaslı meşə yanğınlarının söndürülməsinə səylərinə Azərbaycanın dəstəyini xüsusi vurğulayıblar. "Azərbaycan yenidən qardaşlığını nümayiş etdirdi!", "Qardaşlıq əlaqələri məhz belə günlərdə özünü göstərir", "Azərbaycan yanğınların söndürülməsinə yardım göndərir", "Azərbaycan Türkiyəyə amfibiya təyyarəsi göndərir", "Azərbaycan meşə yanğınlarına qarşı Türkiyəyə kömək edir" kimi başlıqlarla qəzet və saytlarda xəbərlər dərc olunub.

Bəs Türkiyədə meşələr təsadüfən yanır, yoxsa turizm savaşı kontekstində qəsdən yandırılır?

**Türkiyənin ölkəmizdəki keçmiş hərbi attaşesi, general Yücel Karauz mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb:** "Dünyada bir çox yerlərdə meşə yanğınları meydana gəlir. Lakin bir həftə ərzində Türkiyədə 69 yanğın meydan gəldi. Bəziləri bu yanğınları terror təxribatı, bəziləri havanın həddən artıq isti keçməsi, bir qisim isə insanların təbiətə qarşı diqqətsiz və təhlükəli davranış fəaliyyətlərindən qaynaqlandığını bildirir.

Lakin turizm bölgəsindəki yanğınlar terror təxribatıdır. Məqsəd ölkəni çətin vəziyyətdə qoymaq, insanları qorxuya salmaq, sistemin fəaliyyətinin bacarıqsız olduğunu göstərməkdir. Lakin Türkiyə 69 fərqli yerdə baş verən yanğınla mübarizə apara biləcək gücdədir. Məsələ ilə bağlı həm Türkiyə Daxili İşlər Nazirliyi, həm də Müdafiə Nazirliyi lazımi tədbirlər görür, əlindən gələn hər cür dəstək göstərməyə çalışır.

Hər zaman olduğu kimi, bu dəfə də sevinc və kədərdə bərabər olduğumuz can Azərbaycandan dəstək gəldi. Cənab prezident İlham Əliyev Ərdoğana zəng etdi, hadisə ilə bağlı üzüntüsünü bildirdi, ardınca "BE-200ÇS" amfibiya tipli təyyarə Türkiyəyə göndərildi.

Bu bir daha tarixi, mədəniyyəti eyni olan Türkiyə və Azərbaycanın yaxşı və pis gündə təmənnasız birgəlik nümayiş etdirməsinin göstəricisidir.

Məlum olduğu kimi, Van zəlzələsində də Azərbaycan Türkiyənim yardım istəməsini gözləmədən dərhal dəstək, yardım göstərmişdi. Azərbaycan Prezidentinin, xalqının göstərmiş olduğu bu həssaslıq 85 milyonluq Anadolu insanı tərəfindən çox yüksək qiymətləndirilmişdi".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Külli miqdarda narkotikin dövriyyəsinin qarşısı alındı



**Daxili İşlər Nazirliyi (DİN) və Dövlət Sərhəd Xidməti əməkdaşlarının (DSX) birgə keçirdikləri növbəti xüsusi əməliyyat nəticəsində qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilən külli miqdarda narkotik vasitələrin dövriyyəyə buraxılmasının qarşısı alınıb.**

APA DİN-ə istinadən xəbər verir ki, daxil olmuş məlumat əsasında Sabunçu rayonunda polis və sərhədçilər tərəfindən keçirilən tədbirlərlə Əzəmət Əhmədzadə və tanışı əvvəllər də narkotiklərlə əlaqəli cinayətlərə görə məhkum olunmuş Şərif Məmmədov saxlanılıblar.

Ə.Əhmədzadənin idarə etdiyi nəqliyyat vasitəsindən 23 kiloqram tərkibi psixotrop maddələrlə zənginləşdirilən marixuana aşkarlanıb.

Şübhəli şəxslər narkotikləri şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşı vasitəsilə paytaxt ərazisində gizlədilən yerdən əldə etdiklərini bildiriblər.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, onlar barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Azərbaycan meyvə-tərəvəz ixracından 380 mln. dollardan çox gəlir əldə edib

**2024-cü ilin yanvar-iyul ayları ərzində Azərbaycan 383 milyon 863 min dollar dəyərində 368 min 549 ton meyvə-tərəvəz ixrac edib.**



"APA-Economics"in Dövlət Gömrük Komitəsinin hesabatı əsasında apardığı hesablamalara görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkədən ixrac edilən meyvə-tərəvəzin dəyəri 4% və ya 16.3 milyon dollar, həcmi isə 7.2% və ya 28.4 min ton azalıb. 2023-ci ilin ilk 7 ayında Azərbaycan 400 milyon 118 min dollar dəyərində 396.9 min ton meyvə-tərəvəz ixrac edib.

Qeyd edək ki, hesabat dövründə əsas ixrac olunan meyvə-tərəvəz məhsulları 139.5 milyon dollar dəyərində tomat (116.9 min ton) , 54.5 milyon dollar dəyərində meşə fındığı (8 844 ton), 27.8 milyon dollar dəyərində xurma (35.4 min ton), 23.6 milyon dollar dəyərində alma (35.4 min ton ), 20.4 milyon dollar dəyərində kartof (48.2 min ton), 3.3 milyon dollar dəyərində nar (3651 ton) olub.

Əlavə edək ki, cari ilin yanvar-iyul aylarında meyvə-tərəvəzin ümumi ixracda xüsusi çəkisi 2.38%-ə, qeyri-neft məhsullarının ixracında olan çəkisi isə 20.48%-ə bərabər olub.

YENİ MÜSAVAT
N 147 (8520) 20 avqust 2024

# Rusiyadan böyük köç başlaya bilər - azərbaycanlıların taleyi

## Hüquqşünas: "Yeni qanunun tətbiqi Rusiyadakı həmyerlilərimizə təsir göstərəcək, amma..."

**Rusiyadan böyük miqrant köçü başlaya bilər. Buna səbəb Moskvada miqrantların hərbi komissarlıqlarda məcburi qeydiyyata alınmasıdır. Artıq bu istiqamətdə reydlər başlayıb.**

Musavat.com Rusiya mətbuatına istinadən xəbər verir ki, reydləri Rusiya İstintaq Komitəsinin və Daxili İşlər Nazirliyinin əməkdaşları həyata keçirir.

Moskvada metronun "Şçelkovskaya" stansiyasının yaxınlığında, eləcə də Şərq İnzibati Dairəsinin mehmanxalarında ilk reydlər baş verib. Onlarla miqranta hərbi komissarlığa çağırış vərəqəsi verilib. Onlar hərbi qeydiyyata alınacaqlar.

Bu xüsusda Rusiyanın "Kommersant" nəşri yazır ki, Moskvada İstintaq Komitəsinin hərbi istintaq idarəsinin nümayəndələri və Daxili İşlər Nazirliyinin əməkdaşları qeyri-qanuni miqrasiya faktlarını aşkar etmək və keçmiş miqrantların qanunlara riayət etmələrinə nəzarət etmək üçün reyd keçiriblər. Bu yoxlama nəticəsində Rusiya vətəndaşlığını qəbul etmiş onlarla miqrant qeydiyyata alınmaq üçün Hərbi Komissarlığa çağırış vərəqəsi alıb. Nəşrin məlumatına görə, reyd avtovağzalda, tərəvəz bazasında və yataqxanalarda baş tutub. Əvvəllər belə yoxlamalar Moskva vilayətində Serpuxov və Çexovda aparılıb: hərbi müstəntiqlər hərbi qeydiyyatda olmayan 10 keçmiş miqrantı müəyyən ediblər, İstintaq Komitəsinin hərbi istintaq idarəsi bildirib.

2024-cü il iyulun 31-də Duma "Rusiya vətəndaşlığını qəbul edən şəxslərin məcburi hərbi qeydiyyatı haqqında" Qanunu qəbul edib. Bu tələbin yerinə yetirilməməsi Rusiya vətəndaşlığından məhrum etmək üçün əsas olacaq. Təşəbbüs "Rusiyanın yeni vətəndaşları tərəfindən Vətəni müdafiə etmək üçün Konstitusiya öhdəliyinin məcburi şəkildə yerinə yetirilməsinə yönəlib" izahat qeydində deyilir. Bu qanun əsasən Rusiya vətəndaşlığını almış miqrantlara təsir edəcək. Ötən ilin payızında Rusiya Federasiyası İstintaq Komitəsinin rəhbəri Aleksandr Bastrıkin Ukraynaya qarşı müharibədə iştirak etmək istəməyən miqrantların vətəndaşlıqdan məhrum edilməsini təklif etmişdi.



"Xüsusi hərbi əməliyyat davam edərkən, hesab edirəm ki, biz onları xüsusi hərbi əməliyyatın keçirilməsinə cəlb etməliyik. Əgər siz Rusiya Federasiyasının vətəndaşı kimi hərbi borcunuzu yerinə yetirməyə hazır deyilsinizsə, belə bir şəxsi vətəndaşlıqdan məhrum etmək barədə qərar qəbul etməlisiniz", Aleksandr Bastrıkinin sözləridir.

Bundan sonra Rusiyada miqrantlara qarşı basqın halları artıb. Təhlükəsizlik qüvvələri Rusiya vətəndaşlığı olan miqrantları saxlayıb və hərbi qeydiyyata almağa başlayıblar. Ötən ilin dekabr ayında xarici vətəndaşların hərbi qeydiyyatdan yayındığına görə Rusiya vətəndaşlığından məhrum edilməsinə dair məlumatlar yayılmağa başladı. Söhbət Orta Asiyadan gələn miqrantlardan gedirdi.

Rusiya rəsmiləri isə qəbul olunan qanunun miqrantların məcburi müharibəyə aparılmasına görə qəbul edilmədiyini iddia edirlər. Deyirlər ki, qanuna görə, istəyən Rusiya Müdafiə Nazirliyi ilə könüllü müqavilə imzalamaqla Şimal Hərbi Dairəsi zonasına gedə bilər.

**Rusiya rəsmilərindən biri Ukrayna və Britaniya mətbuatının məsələ ilə bağlı yazdıqlarını şərh edərkən deyib ki, Rusiya vətəndaşlığını qəbul etmiş miqrantların qeydiyyatı tam qanunidir**: "Bu, 53-FZ nömrəli "Hərbi vəzifə və hərbi xidmət haqqında" Federal Qanunun 32-ci maddəsində təsbit edilib. Vətəndaş hərbi xidməti yerinə yetirməyi öhdəsinə götürdüyü müddəti göstərməlidir. Eyni qanun, qanunla müəyyən edilmiş yaşa çatmış Rusiya Federasiyasının hər bir kişi vətəndaşının hərbi qeydiyyat tələblərinə tabe olmasını nəzərdə tutur. Yeni vətəndaşlar anadangəlmə vətəndaşlıq almış insanlarla eyni hüquq və vəzifələrə malikdirlər. Rusiya vətəndaşlığını aldıqdan sonra belə şəxslər hərbi xidmətdən yayınırlar. "Belə nümunələr əhali arasında kütləvi narazılığa səbəb olur ki, bu da sosial və ictimai əhval-ruhiyyəyə mənfi təsir göstərir, vətəndaşlıq institutunun nüfuzunu sarsıdır və qanuna hörmətsizliyi təbliğ edir, o cümlədən "yeni vətəndaşlar" arasında ayrı-seçkiliyə yol açır. Buna görə də vətəndaşın hərbi qeydiyyatı və Rusiya Federasiyasının vətəndaşlığının alınması prosesləri sinxronlaşdırılıb".

Bu qanunun qəbulu miqrantların, həmyerlilərimizin geri dönüşünə və ya üçüncü ölkəyə kütləvi köçünə yol aça bilərmi?

**"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov "Yeni Müsavat"a deyib ki, qanun qəbul edilsə də, Rusiyadan kütləvi köç gözlənilmir:** "Nə oradakı miqrantlar, nə də ki, Rusiya iqtisadiyyatı miqrantlarsız fəaliyyət göstərə bilmir. Rusiya iş yerləri baxımından miqrant "cənnəti"dir. Rusların bir çoxu sadəcə işləmək istəmirlər. Bu da işçi çatışmazlığı yaradır. Bu gün Rusiyada 1 milyon nəfərə yaxın həmyerlimiz yaşayır. Yeni qanunun tətbiqi Rusiyadakı həmyerlilərimizə təsir göstərəcək. Amma ciddi bir problemin olacağına inanmıram. O ki qaldı həmyerlilərimizin kütləvi köçünə, inanmıram ki, Rusiyadakı yaşam, iş şərtlərini görənlər ölkəyə qayıdar. Rusiya-Ukrayna müharibəsi başlayanda daha çox Orta Asiyaya üz tutanlar oldu. Azərbaycana kütləvi köç olmayacaq".

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Bakıya yeni elektrik mühərrikli avtobusların ilk partiyası gətirilib



**Çinin "BYD" şirkəti ilə əməkdaşlıq çərçivəsində elektrik mühərrikli avtobusların Bakıya gətirilməsi prosesinə başlanılıb. Avtobusların ilk partiyası artıq Bakı şəhərinə çatıb.**

Bu barədə "APA-Economics"in sorğusuna cavab olaraq Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) bildirilib.

"Çinin "BYD" şirkəti ilə əməkdaşlıq çərçivəsində ümumi 160 yeni elektrik mühərrikli avtobusun alınaraq Bakı şəhərinə gətirilməsi və sərnişinlərin xidmətinə verilməsi nəzərdə tutulub" - məlumatda deyilir.

Qeyd edək ki, avtobusların 2024-cü il oktyabrın 31-dək mərhələli şəkildə gətirilərək Bakı şəhərində marşrut xəttinə çıxarılması planlaşdırılır.

# Kobaxidze: "Gürcüstanda parlament seçkilərində mübarizə müharibə və sülh arasında gedəcək"



**Gürcüstanda oktyabrın 26-da keçiriləcək parlament seçkisində mübarizə müharibə ilə sülh arasında gedəcək.**

APA-nın "1tv.ge"yə istinadən xəbərinə görə, bunu adıçəkilən ölkənin baş naziri İrakli Kobaxidze deyib. O, budəfəki səsvermə prosesini prinsipial adlandırıb və əhalinin düzgün seçim edəcəyinə əminliyini ifadə edib:

"Bu seçki son dərəcə prinsipial xarakter daşıyır. Deyərdim ki, Gürcüstanın tarixində heç vaxt belə prinsipial seçki olmayıb. Bu, həm də müharibə ilə sülh, eləcə də təbliğat və ənənəvi dəyərlər arasında özünəməxsus bir referendumdur. Lakin seçim etmək asandır: əhali birmənalı şəkildə milli-mənəvi dəyərlər və ölkənin işıqlı gələcəyini seçməlidir".

YENİ MÜSAVAT

Son səhifə

N 147 (8520) 20 avqust 2024

Avqust

# Aydan göndərilən yüklər Yerə atılacaq



**Çin alimləri Aydan yük göndərmək məqsədilə 18 milyard dollar dəyərində bir maqnit qurğu hazırlayıblar. Bu cihaz maqnit levitasiya texnologiyasına əsaslanır və iş prinsipi çəkic atma idmanına bənzəyir. Qurğu içərisində yüklərin olduğu kapsulu fırladaraq Yerə atacaq. Ay səthinin yüksək vakuum dərəcəsi və aşağı cazibə qüvvəsi bu cihaza hər gün yüklə dolu iki kapsulu Yerə atmağa imkan verəcək. Hər yük atışının qiyməti mövcud çatdırılma üsullarının yalnız 10%-ni təşkil edəcək.**



## Qarpız böyrəkləri təmizləyir? - nefroloqdan cavab

**"Qarpız yeyin, böyrəkləniz daşdan, qumdan təmizlənsin" fikri tibbi baxımdan doğrudurmu? Həqiqətən də təkcə qarpızla böyrəklərə dəstək verə bilərik?**

Nefroloq-həkim Olqa Azarenko qarpızın böyrəklərə faydası və zərərindən danışıb: "Ümumiyyətlə, hər hansı bir orqanı təmizləmək tibbi baxımdan düzgün fikir deyil. Çünki böyrəklər özləri özünü təmizləyən orqandır.

Böyrəklər qanı, orqanizmi son maddələrdən, tullantılardan, toksik birləşmələrdən, dərman qalıqlarından təmizləyir.

Tibbi baxımdan qarpız, yemiş, xiyar maye yükünü artırır və böyrəklərin işini çoxaldır. Lakin bu heç də onların təmizlənməsi demək deyil. Bəzi nefroloji problemlərdə, xəstəliklərdə, xroniki böyrək yetməzliyində əksinə, maye çoxluğu, qarpız zərər verə bilər. Əgər böyrəklərə dəstəkdən danışsaq, onlar üçün qarpızla adi suyun heç bir fərqi yoxdur. Yəni qarpızda xüsusi faydalı bir tərkib yoxdur".

## İnsanların birdən-birə qocaldığı iki yaş dövrü - biri 44, o biri...



**İnsanların orqanizmində dəyişikliklərin ən çox hansı yaşda baş verdiyi məlum olub. Musavat.com Doktorpiter.ru-ya istinadən xəbər verir ki, bunu "Stanford Medicine" şirkətinin alimləri aşkar ediblər.**

Tədqiqat üçün həkimlər bir neçə il ərzində hər 2-3 ayda bir təcrübə iştirakçılarından - 25-75 yaş arası insanlardan qan və bioloji nümunələr götürüblər. Onlar müxtəlif molekullarda, o cümlədən RNT-də yaşa bağlı 135 min dəyişikliyi, o cümlədən nazofarengil çubuqlarını, qanı öyrəniblər, sidik testi, koproqram və s. izləyiblər.

Məlum olub ki, insan orqanizmi - istər kişi, istərsə də qadın olmasından asılı olmayaraq - yaşa bağlı dəyişikliklərin iki əsas dalğasından keçir. İlk dəfə qocalma əlamətləri kəskin şəkildə 44 yaşında, ikincisi isə 60 yaşında görünür. Alimlər bunu müxtəlif yaşlarda müəyyən xəstəliklərin qabarması ilə izah edirlər.

Üstəlik, ürək-damar xəstəlikləri ilə bağlı dəyişikliklər həm birinci, həm də ikinci hallarda baş verir. İmmunitet funksiyası isə 60 yaşında aşağı düşür, bu da insanın hər hansı bir xəstəliklə mübarizə aparmasını çətinləşdirir.

**"Stanford Medicine" Genetika departamentinin sədri, tədqiqat müəllifi Maykl Snayder deyir:** "Biz, sadəcə olaraq, tədricən dəyişmirik, lakin müəyyən məqamlarda dramatik dəyişikliklərlə qarşılaşırıq".

Maraqlı bir fakt: 40 yaşdan yuxarı insanlarda spirt, kofein və lipid mübadiləsi ilə əlaqəli molekulların sayında əhəmiyyətli dəyişikliklər müşahidə edilib. Onların ürək və qan damarlarının vəziyyəti pisləşib, dəri və əzələ toxumasında yaşa bağlı dəyişikliklər başlayıb. 60 yaşdan yuxarı insanlarda dəyişikliklər karbohidrat və kofein mübadiləsi, immunitetin tənzimlənməsi, böyrək funksiyası, ürək-damar xəstəlikləri, dəri və əzələ ilə əlaqəli olub.

### Qocalığın müalicəsi sınaqdan keçirildi

Amerikalı tədqiqatçılar orqanizmin qocalma prosesini ləngidə və hətta geri qaytara bilən yeni dərmanları sınaqdan keçirirlər.

Bu dərmanlarla təcrübələr artıq itlər üzərində aparılıb. Qeyd edilib ki, "Telomir Pharmaceuticals"ın baş direktoru Dr.Kristofer Çepmen, Dr.Maykl Royzen ilə birlikdə insanın kök hüceyrələrində telomer qapaqlarını uzatmağı hədəfləyən innovativ dərmanı sınaqdan keçirib.

Vurğulanıb ki, telomerlərin artırılması orqanizmə daha çox kök hüceyrə istehsal etməyə imkan verəcək və onların bərpasına dəstək verəcək ki, bu da xəstələrin "cavanlaşmasına" səbəb ola bilər. Yeni preparatın təsiri iki qoca itə - əvvəllər xərçəng diaqnozu qoyulmuş "Zevs" adlı alman çoban itinə və artritdən əziyyət çəkən Nyufaundlend iti "Bensona" tətbiq edilib. Həbləri qəbul etməyə başladıqdan sonra onların səhhəti xeyli yaxşılaşıb.

Alimlər ümid edirlər ki, gələcəkdə bu dərman insanların sağlamlığına müsbət təsir göstərəcək.

## Bunları bilirsinizmi?

* Buqələmunların dili bədənlərindən iki qat uzundur.
* Liftdə ayna qoyulmasının əsas səbəbi qapılar açılarkən kabinənin yerində olduğunu görməkdir.
* Fillərin rəngi əslində boz deyil qızılı-torpaq rəngidir. Boz görünmələrinin səbəbi palçıqlı suların üzərlərində qurumasıdır.
* Qiymətli daşların çoxu bir neçə elementin birləşməsindən meydana gəlir, yalnız brilyant tamamilə karbondan əmələ gəlir.
* Albert Eynşteyn 9 yaşından sonra tam danışmağa başlayıb. Buna görə də ailəsi onun əqli cəhətdən qüsurlu olduğunu düşünüb.
* "Santa Klaus"un paltarı əslində yaşıl rəngdədir. Ancaq bir kola markası onu qırmızı-ağ olaraq dünyaya tanıdıb.
* Qütb ayıları isti və nəmli mühitdə qaldıqları zaman kürklərinin rəngi yaşıla çevrilir.
* Alma, soğan və kartofun dadı eynidir. Yalnız qoxuları fərqlidir. Əslində hamısı şirindir.
* Göytürklər turşuyan qatığın turşuluğunu azaltmaq üçün üzərinə su töküblər. Beləliklə, özləri də bilmədən ayranı kəşf ediblər.
* Dünyanın ən sürətli böyüyən bitkisi bambuk ağacıdır. Ağac gündə 90 santimetr uzanır.
* Dünyada ən çox satılan telefon "Nokia" markasının 2003-cü ildə satışa çıxardığı, 250 milyon ədəd satılan "Nokia 1100"dur.
* Alimlərin fikrincə, insan məktəbi bitirdikdən 22 il sonra sinif yoldaşlarının demək olar hamısının adını və simasını yaddan çıxarır.
* Roma ordusunda hər çadırda 10 əsgər qalırdı. Hər çadırın öz başçısı seçilir və "dekan" adlanırdı.
* İnsan orqanizmində yaşayan bakteriyalar 2 kq təşkil edir.
* Gi de Mopassan, Aleksandr Düma, Şarl Quna 'Parisdə Eyfel qülləsinin ucaldılmasına qarşı "protest" imzalayıblar.
* Həyatı boyu insanın hər barmağı 25 milyon dəfə əyilir.
* Bir ildə 21 milyon 557 min 600 saniyə var.
* Tüdorun hakimiyyəti dövründə İngiltərədə sıx bağlanmış korset və biləkdə çoxlu qolbaqlar bakirəlik əlaməti hesab olunurdu.
* İnsan bədənindəki əsəb impulsları saniyədə 90 m sürətlə dəyişir.

## Qocalma əleyhinə dərman sınaqdan keçirilir

**Amerikalı alimlər itlərin qocalmasını ləngidə bilən dərmanı sınaqdan keçirir. Bu barədə ABC televiziya şirkəti məlumat yayıb. "Telomir Pharmaceuticals" şirkətinin rəhbəri Kristofer Çapman və Klivlend klinikasının mütəxəssisi Maykl Roizen arasında əməkdaşlıq nəticəsində yaradılan dərman artıq iki yaşlı itdə - ölümcül xərçəng xəstəsi olan çoban itində və artritə yoluxan nyufaundlenddə uğurla sınaqdan keçirilib. İtlərin sahibləri hər iki heyvanın vəziyyətinin qısa müddət ərzində xeyli yaxşılaşdığını iddia edir.**

ABC qeyd edir ki, yeni dərman sayəsində kök hüceyrələri çoxalmağa başlayır və sözün əsl mənasında cavanlaşma müşahidə edilir. Hazırda sınaqlarda 10 it iştirak edir. Araşdırmanın nəticələri gələn ilin əvvəlində təqdim olunacaq. İnsanlarda klinik sınaqlar 2025-ci ildə başlaya bilər.

## İsti havalarda yaşlılar və xroniki xəstələrə su tövsiyəsi - gündə 2.5 litr



**Mütəxəssislər yaşlı və xroniki xəstələrə qızmar istilər zamanı "gündə ən azı 2,5 litr su içməyi" tövsiyə ediblər. Temperaturun artması ən çox yaşlılara və xroniki xəstələrə mənfi təsir göstərir. Həddindən artıq istidən bədəndə maye itkisinin xroniki xəstələr və yaşlı insanlarda ölümcül nəticələrə səbəb ola biləcəyi barədə xəbərdarlıq edilib. Həmin şəxslərə günorta saatlarında, günəş şüalarının ən kəskin bucaq altında olduğu vaxtlarda zərurət olmadığı halda çölə çıxmamaq, həmçinin bu saatlarda dənizdə çimməmək tövsiyə olunub.**

Mütəxəssislər isti havaların insan dərisində nəzərə çarpmayan maye itkilərinə səbəb olduğuna diqqət çəkərək, bu vəziyyətin yaşlılarda ölümcül nəticələrə səbəb ola biləcəyini bildiriblər.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazìm SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhərì, R.Rüstəmov küçəsì 2528-cì məhəllə ev 44/d Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yenì Müsavat"ın kompüter mərkəzìndə yığılıb, səhìfələnìb, "Son dakika" MMC-nin mətbəəsìndə çap edilib. Əlyazmalar gerì qaytarılmır. Müəllìflərlə redaksìyanın mövqeyì uyğun gəlməyə bìlər.

Lisenziya N: B 114

SAYI: 1.500